**Səbahəddin Eloğlu**

# ZƏNGƏZUR HADİSƏLƏRİ

AZƏRBAYCAN DÖVLƏT
NƏŞRİYYAT-POLİQRAFİYA BİRLİYİ
Bakı – 1992.

ББКС (Аз)2.
С 36

Redaktoru *İslam Sadıq*
Rəssamı *Etibar İsmayılov*

**Səbahəddin Eloğlu**
C 36 Zəngəzur hadisələri, B.; Azərnəşr. 1992. səh.58.

İstər əsrimizin əvvəllərində, istərsə də indi ermənilərin Azərbaycana qarşı törətdikləri vəhşiliklərlə ilk üzləşənlərdən biri həmişə Zəngəzur camaatı olub. Zəngəzurun təkcə adamlarının deyil, torpağının, daşının da yaddaşında xalqımızın qəhrəman və müdrik keçmişinə dair sirri açılmamış çox böyük hadisələr yaşamaqdadır.

Bu kitabda həmin hadisələrdən söhbət açılır.

C 4702060204
M – 651(07) – 92 elansız
İSBN 5 – 552 – 01312 – 3
ББКС (Аз)2.

Azərnəşr, 1992

## ÖN SÖZ YERİNƏ

Əziz oxucu, bugünkü Ermənistanın ərazisinin 82 faizi Azərbaycan torpaqlarıdı. Bu torpaqları ruslar 1828-ci il Türkmənçay müqaviləsindən sonra müxtəlif vaxtlarda, müxtəlif yollarla Azərbaycandan qoparıb ermənilərə vermişlər.

Zəngəzur, Dərələyəz, İrəvan xanlığı, Şəmsəddin və Göyçə mahalları, Göyçə gölü bizim ata-baba yurdlarımızdı. Bu ərazilərdə 15-dən çox inzibati rayonun, 10 böyük şəhərin, 11 şəhər tipli qəsəbənin, yüzlərlə kəndin adlarını dəyişmişlər.

### İNZİBATİ RAYONLAR

Göyçə mahalı (Vardenis), Basarkeçər (Vardenis), Qəmərli (Artaşat), Vedi (Ararat), Calaloğlu (Stepanov), Hacı Nəzər (Kamo), Molla Dursun (Şaumyan), Qurduqlu (Oktemberyan), Karvansaray (İncivan), Ağababa (Amasiya), Ağgül (Ani), Ellər (Abovyan), Allahverdi (Tumanyan), Düzkənd (Axuryan), Çəmbərək (Krasnoselsk), Hamamlı (Spitak), Üçkilsə (Eçmiədzin), Uluxanlı (Masis) və s.

### BÖYÜK ŞƏHƏRLƏR

Ellər (Abovyan), Sərdarabad (Oktemberyan), Kəvər (Kamo), Qəmərli (Artaşat), Gümrü (Leninakan), Qarakilsə (Kirovakan), Calaloğlu (Stepanavan), Hamamlı (Spitak), Üçkilsə (Eçmiədzin), Göyçə (Sevan) və s.

### QƏSƏBƏLƏR

Uluxanlı (Masis), Alagöz (Araqas), Arpaçay (Axuryan), Ağababa (Amasiya), Vedi (Ararat), Ortakilsə (Mnasyan), Göyçə (Maralik), Əbilkənd (Kalinino), Basarkeçər (Vardenis), Talıboğlu (Lusakert), Tovuzqala (Berd), Allahverdi (Tumanyan) və s.

Bu qədim torpaqlarımızda xalqımızın başına açılmış faciə və müsibətləri gələcəkdə dünya xalqlarına çatdırmaq üçün mənə köməklik edəcək oxuculara qabaqcadan minnətdarlığımı bildirirəm.

## ERMƏNİLƏR BARƏDƏ DEMİŞLƏR...

Bu xalq istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır, Bunlar daim romalılara nifrətdən, parfiyalılara isə həsəddən az qala partlayırlar.

*Tasit*

Ermənilərin eyibi: bədfel gündəbədən, oğru gözügötürməyən bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüş söyən, ürəyi xıltlı, ağasına düşmənçilikdir. Ümumiyyətlə, onlar başdan-ayağa müsbətdən çox mənfiyə yaxındırlar.

*Qabusnamə" (XXII əsr)*

Ermənilər ağ dərili qulların ən pisidir. Onların abırları yoxdur. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər.

*Adam Mets*
*İsveçrə şərqşünası*

Ləzgilər Şilda kəndinə basqın edərkən kəndin başçısı Dodayevin evinə soxulurlar. Bu adamın Yefrem Sukyazov adlı bir erməni katibi varmış. Döyüşün şiddətli yerində o xilas olmaq arzusu ilə özünü ölülüyə vurub yerə yıxılır. Ləzgilərdən biri ona ilişir və onun sol qolunu kəsir. Erməni qorxusundan çınqırını da çıxarmır. Ləzgi çölə çıxarkən səhvini başa düşür, sol əli kəsdiyi üçün xəcalət çəkir. Qayıdıb erməninin sağ əlini də kəsir.

*Aleksandr Duma*
*"Qafqaz səfəri"əsərindən*

Kürd xaqanı demişdir: "Mən əsir düşmüş ermənilər Birsutun qayalarını çapdırıb əbədiqalar məskənlər saldırdım. Erməniləri taqətdən düşənə qədər işlədib sonra öldürmək lazımdır".

*Birsütun rəvayətlərindən.*

# XALQ QƏHRƏMANI SULTANBƏY

Əsrin əvvəllərində Azərbaycanın Zəngəzur əyalətində üç Sultanbəy nəsli böyük fəaliyyət göstərirdi. Qafan mis mədənləri, Bərgüşad çayının axarı boyu inkişaf etmiş kənd təsərrüfatı, Çalbayır maldarlıq mülkləri onların əlindəydi.

Ulu Sultanbəylər nəslindən bu günlərə möhtəşəm qalalar, böyük körpülər, zəngin meşələr qalmaqdadır. İndiki Laçın rayonunun Kürdhacı kəndində yaşayan Sultanbəy maldarlıq sahəsində xüsusi ad çıxarmışdı.

Sultanbəy Zəngəzurda böyük hörmət və şöhrət sahibi, müdrik kəlamlar ustadı kimi tanınmış Paşabəyin oğludur. Paşabəy öz övladlarından Sultanbəylə Xosrovbəyin tərbiyəsinə, onların bir şəxsiyyət kimi yetişmələrinə xüsusi səy və böyük qayğıkeşlik göstərmişdir. Onlara şərqin qəhrəmanlıq və müdrik keçmişini öyrətmişdir, Sultanbəyin hərb sənətinə, Xosrovbəyin tibb elminə yiyələnmələrinə hər cür lazımi kömək etmişdir.

Mükəmməl hərbi təhsil almış Sultanbəy rus ordusuna xidmət etməkdənsə, Çalbayırda yaşayan el, obasının qayğısına qalaraq, birinci növbədə, xalqın ağır güzəranını yaxşılaşdırmağı üstün tutmuşdur. Onun Çalbayır yaylaqlarında on minlərlə davarı, qaramalı saxlanılardı. Kürdhacıda tikdirdiyi yağ-pendir zavodu nəhəng qurğular sistemini xatırladırdı. Yağın və pendirin zavod üsulu ilə keyfiyyətli istehsal edilməsi xəbəri digər Şərq və Avropa ölkələrinə də yayılmışdır. Hacısamlı, Şəlvə, Kürdhacı meşələrinin qırmızı palıdını konyak istehsalı edən zavodlara daşıtdıran Fransa tacirləri Sultanbəyin yağ-pendir zavodunun məhsullarının da əsas müştəriləriydilər.

Bu vaxtı Kürdhacı kəndi Qafqazdakı rus ordusunun yağ-pendir anbarlarına çevrilmişdir. İstehsal olunmuş yağ, pendir böyük motallara, dəmir və ağac çəlləklərə doldurulub buzlu zirzəmilərdə, soyuq kahalarda saxlanılırdı. Məhsulları uzaq yerlərə daşımaq üçün bəyliyin xeyli atı, öküzü, kəl arabaları, dəvə karvanları vardı. Əsrin əvvəllərində dünya kapitalizmi Azərbaycanın sərvətlərini acgözlüklə qarmalayırdı. Bakı nefti, Gədəbəy, Qatar (Qafan) mis yataqları, Zəngəzur meşələri alman, fransız və ingilislərin caynağında idi.

Rusiyanın kiçik xalqları əsarət altında saxlamaq siyasəti Azərbaycanda daha dözülməz idi. Rusiya bir tərəfdən ağır vergilərlə xalqı soyub talayır, digər tərəfdən müstəmləkəçiliyin ömrünü uzatmaq üçün xalqın ziyalı və mütəfəkkirlərini Sibir sürgünlərində məhv edirdi. Əgər XIX-XX yüzilliklərdə Sibir çöllərində ölənlərin məzarları araşdırılsa, bu yerlərdə Azərbaycanlıların qəbirləri tapılar.

O vaxt Azərbaycanı qoruyacaq vahid xalq ordusu yox idi. Ayrı-ayrı xanlıqlar, bəyliklər öz mülklərini qorumaq üçün kiçik süvari dəstələr saxlayırdı. Dinc əməklə məşğul olan Sultanbəyin ailəsinin də var-dövlətini mühafizə etmək üçün çox da böyük olmayan silahlı süvari dəstəsi vardı.

Türk ordusunun sirlərini ingilis kəşfiyyatına satmaq üstündə qulağı kəsildikdən sonra qaçıb İrəvana gəlmiş Andranik Uzunyan davakar erməniləri başına toplayıb silahsız Azərbaycan kəndlərinə tez-tez basqınlar edirdi. Onun yaraqlı quldur dəstələrinin törətdiyi vəhşiliklər haqqında Zəngəzura da bəd xəbərlər gəlib çatırdı.

Onlar Azərbaycanlı uşaqları tonqallarda yandırır, boylu qadınların qarnına xəncər soxur, adamların başına mismar çalır, kürəyinə qaynar samovar bağlayır, qız və qadınların üzlərinə süngü və xəncərlə xaç şəkilləri çəkir, cavanların ayaqlarını nallayırdılar. Quldur daşnak birləşmələri bu minvalla yüzlərlə Azərbaycan kəndlərini viran qoyur, qarət etdikləri qənimətlərin hesabına ordu yaradaraq Laçın rayonunun Zabıx kəndinə hücum çəkirlər. Bir günün içində Zabıx və Tat kəndlərini dağıdıb xaraba qoyurlar.

## TAT QIRĞINI

Daşnak ordusunun əsrin əvvəllərində Zəngəzurda törətdiyi vəhşiliklərdən ən dəhşətlisi Tat qırğınıdır. Andranikin quduzlaşmış ordusunun Tat kəndində törətdiyi vəhşiliklər heç bir müharibə tarixində görünməmişdir.

Bu döyüşdə tatlar baltadan, yabadan, ağacdan, daşdan istifadə edib şücaət göstərsələr də, qüvvələr nisbəti çox olduğundan düşmənin qarşısını ala bilməmişlər. Tatlar çox böyük itkilərlə məğlub olmuşlar. Daşnaklar camaatın bir hissəsini böyük kahalara doldurub ağzında gərmədən ocaq qalayıblar. Onları tüstüdə boğub, odda yandırıblar. Bir dəstə əsiri Zabıx kəndinə gətirdikləri zaman yolda erməni dığalar bir gürzəni ağacla götürüb qolları bağlı kişinin üstünə atırlar. İlan dərhal kişinin boynuna dolanıb üz-gözünü gəmirir. Sonra qulağını ağzına alır. Kişi bir qədər getdikdən sonra huşunu itirib yerə yıxılır. Daşnaklar kişinin öldüyünü güman edib başına, kürəyinə bir neçə daş salıb gedirlər.

Əsir götürdükləri qadın və qızların əvvəl saçlarını kəsdirib çatı toxutdururlar. Onlara ağlasığmaz işgəncələr verib, çılpaq-çılpaq ağaclardan asırlar.

Quldur daşnak ordusunda xidmət edən bir erməni həkiminin göstərişi ilə sağlam görünən kişi və qadınların başlarını kəsib qanlarını ayrıca qablara yığırlarmış. Yetmiş uşağın qarnına süngü soxub yol boyu işarə daşları kimi düzürlər. Patrona qənaət etmək məqsədi ilə adamların başlarını daşların üstünə qoyub gürzlərlə əzərək Zabıx çayına tökürlərmiş. Qədim yazılı ağır bir daşı Ermənistana aparmaq üçün 20 nəfər Tat kişisini arabaya qoşurlar. Xumar adlı kənd Tat gözəlini Andranikin çadırına apararkən Sərt döngə deyilən yerdə qız qəflətən yerdən daşı cəld götürərək başına vurub, özünü öldürür. Xumarın qardaşı İbrahimi qolu bağlı itlərin qabağına ataraq quduzlara parçalatdırır, sonra ağaca bağlayaraq sinəsinə bıçaq atırlar.

Daşnaklar törətdikləri vəhşilikləri Zəngəzur camaatı arasında yayıb vahimə yaratmaq üçün bir neçə qadın və kişinin budlarına, kürəklərinə möhürə bənzər dəmiri qızdırıb basaraq Abdallar kəndinə tərəf buraxırlar. Xəbər Ağanus, Fətəlipəyə, Şüyüdlü, Mığırdərə, Malxələf kəndlərinə çatanda camaat sel kimi axışıb köməyə gəlir. Lakin iş-işdən keçibmiş. Kəndlər tamam yandırılıbmış, əhali qırılıb məhv edilibmiş.

## ZƏKA SİLAHDAN DA GÜCLÜDÜR

Tat qırğınının axşamı Andranik Abdallardan Şuşaya keçmək üçün Sultanbəydən yol istəyir. Elçiləri vasitəsi ilə Sultanbəyə çatdırır ki, hərgah Qarabağ yürüşümün təhlükəsizliyini təmin edə bilsən sənə istədiyin qədər qızıl verərəm. *Sultanbəy cavabında bildirir ki, hələ bu elin igidləri qeyrətlərini pula satmayıblar.*

Xalqı yaranmış vəziyyətdən çıxarmaq üçün ciddi tədbirlər görə biləcək iti zəkaya ehtiyac var idi. Sultanbəy Şuşa quberniyasında işləyən çox ağıllı, müdrik zəkalı qardaşı general Xosrovbəylə təcili məsləhətləşdikdən sonra Andranikə bildirir ki, onun Qarabağ yürüşünün təhlükəsizliyini təmin etmək üçün bir qədər silah lazımdır.

Andranik Sultanbəyə 20 qatır yükü silah verir. Sultanbəy Andranikdən aldığı sursatla özünün süvari dəstələrini silahlandırıb Qaladərəsindən Şuşaya gedən yolda, Yeddiqatın ayağında nal şəkilli pusqu yaradır. Andranikə xəbər göndərir ki, yolda şübhə doğurmamaq üçün topları da sökdürsün və mənim işarəmi gözləsin. Andranik belə də edir. Topları sökdürüb, yükləri hazırlatdırır. Əhvalatın üçüncü gününün axşamı Sultanbəy Andranikə xəbər göndərir ki, gecə gəlin keçsin. Andranik xəbəri alandan bir az sonra silah yüklənmiş 170 qatır karvanını Şuşaya yola salır, özü isə sübh çağı ordu ilə getmək qərarına gəlir.

Eyni zamanda həmin gecə Sultanbəy bir neçə atlıya neft dolu tuluqlar verdirib tapşırır ki, Dığa, Xınzirəyə, Gorusa, Sisyana gedib Andranikin gəldiyi yollardakı bir neçə erməni kəndlərinə od vursunlar.

Gecə Andranikin silah aparan karvanı yeddiqata çatanda Sultanbəyin pusquda dayanmış süvariləri meşədən çıxıb silah yüklü qatır karvanının yönünü Kürdhacı kəndinə tərəf döndərirlər. Beləliklə, zəhmli silahlar Andranikin ordusunun əlindən çıxır.

Həmin gecə arxa kəndlərdən tez-tez çaparlar gəlib Andranikə bildirirlər ki, türklər arxadan hücuma keçib kəndləri yandıra-yandıra gəlirlər. Qayıdıb onların qabağını kəsmək lazımdır.

Gecədən xeyli keçmiş Adranikə xəbər verirlər ki, Qarabağa göndərdiyin silah yüklü qatır karvanı keçib Sultanbəyin dəstələrinin əlinə. Bu xəbəri eşidən Andranik buraxılmış səhvin nə ilə nəticələnəcəyini dərk edərək qorxu və

həyəcanını ordusundan gizlədə bilməyib çox bərkdən hönkürərək zarıyır. Sonra orduya geri qayıtmaq əmri verir. Andranikin ordusu geri dönüb Zabıx kəndinin yaxınlığındakı dərin dərədən Dığ kəndinə keçmək istəyərkən Sultanbəyin dəstələri daşnakları mühasirəyə alıb dərəni qabaqdan və arxadan kəsirlər.

Tarixdə daşnaklara ibrət dərsi olsun deyə Sultanbəy quldur ordusunun 30 min əsgərini quzğunlara yeditdirir, 61 sərkərdəsinin başını kəsdirib Hacısamlı meşəsində saxlatdırdığı şirlərə atdırır. Qocalar danışırlar ki, bir müddət Zabıx çayı qan axırmış.

Mükəmməl hərbi biliyə yiyələnmiş Sultanbəyin "Dağlarda tufan", "Güllə ətdən keçib, ətdə soyumalı", "Zərbə dalınca zərbə", "Nalşəkilli mühasirə", "Üçbucaq", "Qəflətdən hücum", "Gullədən leysan", "Mövqe seçmək bacarığı" kimi hərbi taktiki nəzəriyyələrindən daşnakların Zəngəzurda əzişdirilməsində çox böyük ustalıqla istifadə edilmişdir.

Andranikin quduz ordusunun Zabıx dərəsində məhv edilməsi xəbəri Zəngəzur kəndlərində böyük ruh yüksəkliyinə səbəb olub. Bundan sonra hamı Sultanbəyin dəstələrinə köməyə qalxıb. Sultanbəy Zəngəzura soxulmuş daşnak quldurları təmizləmək məqsədi ilə öz dəstələrinə üç istiqamətdə hərəkət etməyə göstəriş verir:

1.Canqutaran dağının ətəyində ciddi təlim keçmiş 700 atlıdan ibarət Minkənd alayı Qaragöl, Üçtəpə, Burunkənd, Gorus istiqamətində hərəkət edib Xınzirək kəndinə dolmuş daşnaklara arxadan güclü zərbə endirməli, Haramı düzündə İrana qaçan daşnak quldurlarını mühasirədə saxlayan Güləbirdli Aslanbəyin və Məzməzək igidlərinin köməyinə çatmalı idi.

2.Zabıx dərəsində qələbə qazanmış dəstələr Dığ, Xınzirək istiqamətində sürətlə irəliləyib Haramı düzünə köməyə gələn İldırımbəyin dəstələrinə qoşulmalı idi.

3. Malxələf, Fərəcan istiqamətində hərəkət edib Başarat meşəsinə Haral, Xozabird tərəfdən soxulmuş Qarabağ daşnak qruplarına qarşı vuruşan Kişi Tavat, Ovçu Sultan, Pələng Rəsulun dəstələrinə kömək edib meşəni daşnaklardan təmizləməli idi.

## QARAGÖL DÖYÜŞÜ

Sultanbəy Məlik-Əjdər türbələri yanında tikilmiş böyük çadırda Araz çayı ətrafından gəlmiş nümayəndələr ilə yaylaq məsələsini müzakirə edirdi. Görüşdə Qatar, Zəngilan, Cəbrayıl, Qubadlı bölgələrindən olan bəylər də iştirak edirdilər.

Qatar bölgəsindəki vəziyyət haqqında çıxış edən nümayəndə daşnakların Cavidan tarixi abidələrini vəhşicəsinə dağıtmalarından kədərlə danışdı.

Sultanbəy üzünü Çal Aslana tutub Qaragöl döyüşü haqqında tədbirlərin deməsini təklif etdi. Çal Aslan ağır döyüşlərdən qalib çıxmış sərkərdə təmkini ilə ayağa durub bir qədər qəzəbli nəzərlə Cavidan abidələrinin sındırılmasından danışan nümayəndəyə baxdı. Bu baxış məxfi müşavirədə iştirak edən bütün bəylərə xüsusi təsir bağışladı. O açıb deməsə də, daxilən keçirdiyi mənəvi gərginlik aydın hiss olunurdu. Baxışlarıyla soruşurdu ki, bəs hanı sizin elin kişiləri, ata-baba yurdlarınızı dığalar dağıdırlar? Sonra o Qaragölü Zəngəzur dağlarının üzük qaşı adlandırdı. Onun xalq təsərrüfatı üçün böyük əhəmiyyətindən danışdı. Bu göldə qiymətli balıq növlərinin yetişdirilə bilməsindən danışdı. Nəhayət, yaxın vaxtda Qaragöldə başlanacaq ağır döyüşlərin necə əlaqələndirilməsindən və necə idarə olunmasından danışaraq fikirlərini belə şərh etdi:

Daşnaklar Qaragöl ətrafına böyük qüvvə toplamışlar. Məqsədləri qar əriyən kimi yaylaqları tutmaq, Minkənd, Şilvə istiqamətində hərəkət edib Dəli dağdan Qarabağa enmək, bu yay aran ellərimizi yaylaqdan məhrum etməkdir. Bu çox təhlükəli bir siyasətdir. Hərgah biz aran ellərimizin mal-qarasını, qoyun-quzusunu yaylağa çıxartmasaq hamısını qızdırıb və müxtəlif xəstəliklərə tutulub qırıla bilər. Bununla düşmənlər bizim iqtisadiyyatımıza böyük zərbə vurmuş olarlar. Biz Qaragöl yaylağından düşmənləri yaxın vaxtda təmiz qovmalıyıq. Bunun üçün təklif edirəm:

1.Qatar, Zəngilan, Qubadlı ellərindən təşkil olunmuş dəstələr Gorusa sağ cinahdan hücum edib daşnakların şəhərdəki qüvvələrinin başını qatsınlar.

2. Bəhlul Behcətin yaratdığı Müsəlman din ordusu Kəcavə yolu ilə gəlib Yazı düzünə çıxsın. Ağdərə yoxuşundan aşıb Qaragölün Qannıca dağı tərəfdən olan sahəsini mühasirəyə alsınlar.

3.Xilaskar ovçular: Balakişinin, Əhmədin, Xəlilin, Kərəmin, Əlyanlı Sultanın dəstələri Burunkənddən Qaragölə gedən yolu kəssinlər.

4.Minkənd alayı Sisyandan gələn yolu kəsməkdə hərdən arxa tərəfdən zərbə endirsin.

5.Dəli Xanların dəstəsi Xosrovbəyin Şuşadan göndərdiyi pəhlivanlar dəstəsinə qoşulub Qannıca dağından Qaragölə gələn yolu nəzarət altında saxlasın.

6. Pulemyotçular Çınqıllı dağda pusqu yaratsınlar.

7. Düşmənə əsas zərbə qaranlıq dərədən toplarla endirilsin.

8. Aşıq Abbasın təbilçi və Zurnaçılar dəstələri döyüş günü tezdən Dəli Xanların dəstələrinin qabağında meydana tərəf hərəkət etsinlər. Gürz vuran, qılınc çalanları döyüşə ruhlandırsınlar.

Dünya görmüş Kərbəlayi Məmməd, Bəhlul Behcət, Qazi Çələbi Çal Aslanın çıxışına heyran qalmışdılar. Güləbirdli Aslanbəy yerindən qalxıb "döyüşün vaxtını bilmədim" - dedi. Sultanbəy özü cavab verərək bildirdi ki, Qaragöl döyüşü may ayının onunda səhər saat dörddə başlanacaq. Bunula Məlik-Əjdər məxfi

görüşü öz işini qurtardı. Hamı verilən tapşırıqları yerinə yetirmək üçün böyük məsuliyyət hissi ilə çadırdan çıxırdı. Bəhlul Behcət Sultanbəyi ilk dəfə burada gördüyü üçün ona yaxınlaşıb əl verdi. Sultanbəy ona ehtiramla baş əyib təşrif gətirməyinə təşəkkür etdi. Bəhlul Behcət Azərbaycan dilinə tərcümə edib qurtardığı "Quran" kitabının nəfis toxunmuş, üstündə qılınc şəkli olan dəsmala bükülü bir nüsxə əlyazmasını Sultanbəyə bağışladı.

1917-ci ilin may ayının 10-da Sultanbəy döyüşə rəhbərlik etmək üçün Çınqıllı dağın döşündə tikilmiş alaçığın qabağında atdan düşüb dürbünlə daşnakların qərargahına və ətraflara bir qədər baxdıqdan sonra Sultanbəylə görüşməyə hazır dayanmış Çal Aslana əl uzatdı. Çal Aslan iki əllə Sultanbəylə görüşüb səngərlərdən yenicə gəldiyini bildirdi. Əlavə etdi ki, hər şey öz qaydasındadır. Lazımlı bütün tədbirlər görülmüşdür. Hamı sizin işarənizi gözləyir. Sultanbəy cib dəsmalını çıxardıb alaçığın qabağındakı daşın üstünə sərdi. Sol döş cibindən Bəhlul Behcətin Azərbaycan dilində verdiyi "Quran"ı dəsmalın üstünə qoyub üzü qibləyə doğru dedi: "Ey "Quran", haqq işimizə görə bizə kömək elə". Sonra ehtiramla "Quranı" götürüb yenə döş cibinə qoydu. Şad təbəssümlə Çal Aslana baxıb qaranlıq dərədə yerləşən topçulara tərəf bir fişəng atdı. Bir anda topların səsi dağları lərzəyə gətirdi. Sərrast nişanlanmış topların mərmiləri düşdüyü yerlərdə daşnakların bütün sursatlarını torpaqla birlikdə göylərə sovurdu. Güclü top atəşinə məruz qalmış daşnaklar səhərin ala qaranlığında nəinki müqavimət göstərməyə imkan tapa bilmirdilər, hətta qaçmağa belə yer yoxuydu. Hansı səmtə üz tuturdularsa, güllə yağış kimi yağırdı. Topların səsinə Gorus şəhərinin və ətraf kəndlərin camaatı da oyanmışdı.

Qaragöl döyüşündə Sultanbəy 9 uzaqvuran, 5 yaxınvuran toplardan, 40 pulemyotdan, 3 min müxtəlif növ tüfəngdən, 120 qılıncdan, 50-dən çox gürzdən, 9 minə yaxın adamdan istifadə edirdi. Döyüş axşama qədər davam elədi. Demək olar ki, düşmənin əsas hərbi sursatı məhv edilmişdi. Əsir alınanların sayı 600-dən çox idi. Böyük düz qırılan və yaralananlarla dolu idi. Qaranlıq düşənə yaxın Sultanbəy topları döyüş meydanından çıxartdırıb Gorusun qaşına apartdırdı. Bir qədər sonra Gorus şəhəri toplardan atəşə məruz qaldı. Şəhərdə ciddi qarmaqarışıqlıq yaranmışdı. Bu zaman Xınzirək kəndinə tərəf qaçanların sayı daha çox idi. Çal Aslanın göstərişi ilə Ağaməmməd Minkənd alayı ilə Xınzirək kəndini mühasirəyə aldı.

Ağaməmməd dəfələrlə ağır döyüşlərdən zəfərlə çıxmışdı. Ona Zəngəzurun dişli qartalı deyərmişlər. Ağaməmmədin adam gəmirən atları çox daşnak başı qopartmışdı.

Sabahısı günü Sultanbəyin Qaragöl ətrafındakı dəstələri bəzi işləri sahmana saldıqdan sonra qələbə mahnıları oxuya-oxuya Xınzirək kəndini mühasirədə saxlayan Ağaməmmədin dəstələrinə köməyə gəldilər. Xınzirək kəndinin camaatı

müqavimətsiz Ağaməmmədin dəstələrinə qoşularaq daşnakları kənddən qovdular. Bununla Zəngəzur yaylaqlarındakı bütün təhlükələr aradan qaldırıldı. Sultanbəy Araz çayı ətrafındakı tərəkəmə ellərinə adam göndərdi ki, yaylaqlara arxayın köçə bilərsiniz.

## SAHİL ƏMƏLİYYATI

Sultanbəyin qəfil zərbələrinə tab gətirməyib İrana qaçmaq istəyən silahlı daşnak dəstələri Araz çayı sahilindəki qamışlıqlara doluşaraq gecələr fürsət tapan kimi çaya tökülüb o taya adlayırdılar. Sahil əməliyyatında Həkəri və Bərgüşad çaylarının vadilərindəki kəndlərin camaatı və Zilanlı kürdləri xüsusi fəallıq göstərirdilər.

Zilanlı kürdləri Arazın sahilində sol cinahda Diri dağı, Xudafərin körpüsünü, sağ cinahda isə Mincivanadək sahil boyunu nəzarət altında saxlayıb Araza tökülən daşnak dəstələrini gülləbaran edib axırlarına çıxırdılar.

Kürdlər donuzları neftləyib, od vurub qamışlıqlarda yanğınlar törədərək düşmənləri məhv edirdilər. Yanğından qaçan erməniləri Zəngilan, Məmmədbəyli kəndlərinin ətrafındakı dərələrdə kütləvi şəkildə qırırdılar. Daşnakların xaricə aparmaq istədikləri var-dövləti əllərindən alıb Azərbaycan kəndlərinə paylayırdılar. Sahil əməliyyatı zamanı ermənilərdən alınmış silahlarla Çaytumas, Ağalı, Alaqurşaq, Xanlıq kəndlərində güclü silahlı dəstələr yaradırdılar.

## MÜVƏQQƏTİ DİNCLİK

Daşnakların quldur orduları Zəngəzurdan qovulub çıxarıldıqdan sonra həyat xeyli dəyişdi. Yollar təhkükəsiz oldu, tarlalarda əkin və biçin işləri qorxusuz gedirdi. Hamı bolluğa çalışırdı. Kəndlərdə yeni abadlıq işəri görülürdü. Həyətlərdə toy mağaralarından şən musiqi sədaları eşidilirdi. Analar matəm paltarlarını dəyişmişdilər. Gənclər bulaqların başında yenicə məclislər qururdular. Amma bu dinclik, bu əmin-amanlıq uzun çəkmədi. Zəngəzurda yenidən tufanlar qopdu, qara yellər əsdi. Daşnaklar silah qırğınından siyasət qırğınına keçdilər.

## DAŞNAKLARIN İNQİLAB TRİBUNALI

Əcnəbi ölkələrə qaça bilməyən bəzi daşnaklar cildlərini dəyişib Gorusda inqilabçıların sıralarına soxuldular. Beləliklə, Zəngəzurda çox təhlükəli vəziyyət yarandı. Daha doğrusu, A.Mikoyanın, S.Şaumyanın Zəngəzur siyasətinin həyata keçirilməsinə başlandı. Mikoyanın Zəngəzur siyasəti Zəngəzurda Azərbaycanlıları “əritməkdən” ibarət idi. Bu vaxt minlərlə adamları yenidən Gorusun türmələrinə

doldurdular. Onlara ağır işgəncə verdikdən sonra “inqilab”, “yeni cəmiyyət” düşmənləri, varlılar, mülkədarlar, qolçomaqlar və s. adlar qoyaraq özlərinə qəbir qazdırtdırıb gecələr saxta hökmlər oxuyaraq güllələyib cinayətin izini itirirdilər. Yerə qənaət etmək üçün bəzən onlarla adamı güllələyib bir xəndəyə tökürdülər. Bu dövr daşnakların siyasəti ilə Zəngəzurda Azərbaycanlıların azaldılması dövrüdür.

İndiki Gorus şəhərinin təzə küçələrinin altında minlərlə günahsız öldürülmüş azərbaycanlıların sümükləri çürüməkdədir. Minlərlə qeydiyyatsız öldürülənlərdən, sürgünlərə göndərilənlərdən hələ də xəbər yoxdur. Mikoyanın tapşırığı ilə Zəngəzurda azərbaycanlılarla kürdlər elə seyrəldirildi ki, Qannıca, Üçtəpə, Qaragöl yaylaqlarında donuz tövlələri tikilməyə başlandı. Mikoyan Andranikdən daha təhlükəli hərəkət etdi. O, Zəngəzurda mal-qara saxlamağı bacaranlardan başqa hamını müxtəlif yollarla qırdırdı. Qocalar danışırlar ki, erməni agentlər gecələr rus əsgərlərlə gəlib Azərbaycan kəndlərindən mal-qaranı, bəzən evlərdən istədikləri şeyləri yığıb aparırdılar. Bir də görürdün ki, gecənin yarısı bir neçə erməni yanlarında rus əsgəri, təlim görmüş itlərlə varlı ailələrin sahiblərini götürüb apardılar. O gedən bir daha qayıtmazdı. Ermənilərin hiyləgərliyi ilə qırmızılar Sultanbəyə də sui-qəsd hazırlatdırırlar. Yaranmış vəziyyətin mürəkkəbliyini dərk edən Sultanbəy Azərbaycan İnqilab Komitəsinə müraciət edir. Buradan ümidverici cavab almadığına görə İran şahına üz tutur. Şah İranda Rusiyanın erməni erməni agentlərinin çox və qüvvətli olduğunu bildirib Türkiyə dövlətinə müraciət etməyi məsləhət görür. Sultanbəy Türkiyə dövlətinə müraciət etdikdə Türk dövləti hər iki qardaşı - Sultanbəylə Xosrovbəyi rəsmi keçidlə qarşılayıb Ərzurum vilayətində mülk və malikanə verərək həyat şəraiti ilə təmin edir.

## “GƏL KEÇ”

Zabıx dərəsində məğlub olduğunu və həyatının təhlükə qarşısında qaldığını görən Andranik əyninə çuxa geyərək iki uşaqla qaçarkən döyüş yerinə gələn Sultanbəylə və onu müşahidə edənlərlə qəflətən qarşılaşır. Tələyə düşdüyünü görən Andranik erməni xasiyyəti ilə yaltaqlanmağa başlayıb, Sultanbəyə deyir: “Ay bəy, allah bu daşnakların evini yıxsın, nahaq yerə xalqlarımızı qırğına verdilər”. Sultanbəy deyir: “Düz deyirsən”. Sonra Sultanbəy soruşur ki, “bəs sən hardan gəlirsən?” Andranik cavab verir ki, “bu uşaqlar yaxın kənddən gəliblər aparım ötürüm, qurd-quş dəyməsin. Sizdən xahiş edirəm qoymayın uşaqları öldürsünlər”. Sultanbəy deyir ki, “biz uşaq öldürmürük, siz uşaq öldürürsünüz. Sizinkilərin Zabıx yaxınlığında 70 Tat uşağının qarnına süngü soxub öldürmələrini eşitmisən?” Andranik başını aşağı salır. Sonra Sultanbəy onu müşahidə edənlərə deyir ki, uşaqları buraxın getsinlər. Uşaqları buraxırlar. Andranik yaman yerdə ələ keçdiyini

dərk edir. Sonra Sultanbəyə üz tutub deyir ki, “bəy, rəhm eləsən uşaqları özüm aparıb ötürərdim. Azıb qalacaqlar bu yerlərdə”. Neçə gündü qələbə xəbərlərini eşitdiyinə görə Sultanbəyin ovqatı bir qədər yaxşıydı. O gülümsər halda yarı zarafat ayaqlarını aralı qoyub deyir: “gəl keç”. Andranik əyilib Sultanbəyin qılçasının arasından keçir. Aradan bir az keçəndən sonra Sultanbəyin atlıları həmin yolla çaparaq gəlib bildirirlər ki, Andranik iki uşaqla əynində çuxa, başında dəri papaq çadırdan çıxıb bu yolla qaçıbdır. Sultanbəygil gülüşürlər. Sonradan bilirlər ki, doğrudan da o, Andranikiymiş. Sultanbəyin atlıları istəyirlər Andranikin dalınca gedələr. Sultanbəy qoymayıb deyir: “Oğul, oğul getməyin, onun qulağını türklər kəsmiş, mənimsə qılçamın arasından keçmişdir. O, Azərbaycana heç nə eləyə bilməz. Gəlin görüm düşmənləri necə qırmısınız?”

## SULTANBƏYİN QIZI
## BƏYİM XANIMIN XATİRƏLƏRİNDƏN

Uzun illər sürgünlərdə olmuş Bəyim xanım ailələrinin faciəli taleyindən belə nəql edir:

- Qırmızı Ruslar Zəngəzura gəldikdən sonra atama ardı-arası kəsilmədən sui-qəsd edirdilər. Qəsdlərin birində atama güllə də atdırdılar. İncəvarda güllə kişinin başından yox, çənəsindən dəyərək az yaralamışdır.

Atam vəziyyətin gərginliyini başa düşmüşdü. Düşməndən qoruduğu vətənində özünün qorunmağına heç bir ümid qalmamışdı.

Atam gələcəkdə vətəni yenə düşmənlərdən xilas etmək üçün xarici mühacirətə getmək qərarına gəldi. Bundan sonra bizim indiki Laçın rayonundakı mülklərimizdə yaşamağa imkan vermədilər. Anam Qarabağ xanlarının nəslindən, şair Natəvanın nəslinin ziyalı qızlarından biri idi. Bugünkü Xan kəndi mənim ana babalarımın torpaqlarıdır. Biz bir qədər Qarabağdakı qohumlarımızın himayəsində yaşadıqdan sonra Bakıya köçməli olduq.

Anam ziyalı, qoçaq və bir qədər də diplomat qadın olduğundan xeyli vaxt məsul vəzifələrdə işlədi. Bir müddət Bakı şəhər sovetinin deputatı da oldu.

Otuzuncu illərin həyəcanlı gecələrinin birində qapımız döyüldü.

Anam qapını açdı. Hərbi formada bir neçə adam icazəsiz evə girib başladılar evi axtarmağa. Evi alt-üst etdilər. Biz hələ də məəttəl qalmışdıq ki, bunlar nə axtarırlar.

Demiyəsən, NKB-də işləyən daşnak agentlər çoxdan bizim evi nəzarət altında saxlayıb güdürlərmiş.

Bir azdan atamın şəkli, “Quran”ı, müxtəlif, lazımlı sənədləri, qiymətli əşyaları saxlanan boxçanı yükün arasından götürüb açdılar. Gələnlərdən biri erməni idi. O atamın şəklini görən kimi həyəcanla: “vot, vot Sultanbek” deyib şəkli

onunla gələnlərə göstərdi. Bir neçə dəqiqədən sonra anama bildirdilər ki, evdən heç nə götürmədən həbs olunursunuz. Əynimizin paltarlarını da götürməyə də imkan vermədilər. Gecə hamımızı gətirdilər Bayıl türməsinə. Biz türmədə eşitdik ki, Məmməd Əmin Rəsulzadənin ailəsi də burdadır. Sonra bizə dedilər ki, 700 azərbaycanlı qadını bu gecə sürgün edəcəklər. Səhərə yaxın bizi yük vaqonlarına doldurub Bakıdan çıxartdılar. Hara apardıqlarını bilmirdik. Yağışın, küləyin, günün altında bir aya yaxın yollarda qaldıq. Aclığa, susuzluğa tab gətirməyib ölənləri qatar gedə-gedə hara gəldi atırdılar. Demək olar ki, hamı üzülmüşdür. Körpə uşaqların vəziyyəti daha ağır idi. Üstümüzdə dayanan silahlılar Azərbaycan uşaqlarına düşmən uşağı kimi baxırdılar. Hər gün gözümüzün qabağında onlarla uşaq ölürdü. Bu vaxt ən dəhşətlisi ölən azərbaycanlıların məzarları üstündə ad-soyad yazmağa icazə verməmələri idi. Gələcəyə iz qalmasın deyə, qəbiristan yaratmağa qoymurdular. Azərbaycanlıları mənəvi cəhətdən ən çox sarsıdan burada da məhbusların taleyinin ermənilərin ixtiyarına verilməsi idi. Azərbaycanlılar yaşayan həbs düşərgələrində ermənilər ağlasığmaz dəhşətlər törədirdilər. Canilər qadınların üstlərindəki qızıl zinətləri (təsadüfi hallarda bəzi qadınların üstündə qızıl olurdu,) açırdılar, hətta ağızlarındakı qızıl dişlərini də kəlbətinlə sındırıb çıxarırlar, düşərgələr dolu idi azərbaycanlılarla. Çox vaxtı adamlar bir-birilərindən soruşurdular ki, görən Azərbaycanda heç azərbaycanlı qalıbmı? Sürgündəki adamları çox işlədirdilər. Qazaxıstanın bir çox vilayətləri sürgün olunmuş azərbaycanlıların qabarlı əlləri, alın tərləri hesabına abadlaşdırılmışdı. Anam qoçaqlıqda ad qazanmışdı. İşdən sonra sürgündəki azərbaycanlı uşaqlarına savad öyrətmək məqsədi ilə dərnək təşkil etmişdir. Uşaqlar anamı müəllim deyə çağırırdılar.

1948-ci ildə anam icazə ilə Bakıya gəlib, Bağırovun qəbuluna yazılıb onunla görüşür. Ailəmizin Bakıya qayıtması haqqında icazə istəyir. Bağırov anama deyir ki, Sultanbəy nəslinin bir daha Azərbaycan torpağına ayaq qoymağına icazə verilməyəcək. Anam cəsarətlə qəbuldakıların yanında Bağırova deyir: “Sultanbəy xalqının qəhrəman oğludur. O, Zəngəzurda xalqımızı daşnaklardan xilas etmişdir. Tarix bunu heç vaxt unutmayacaq. Amma sən, bu gün Azərbaycan xalqını sürgünlərdə məhv edən cəllad kimi vaxt gələcək xalq qarşısında cavab verməli olacaqsan”. Anam kor-peşman yenə Qazaxıstana qayıtdı. 1956-ci ilə qədər biz sürgündə qaldıq.

Biz Azərbaycana qayıdanda Bağırovun məhkəməsi gedirdi. Anamı da məhkəməyə dəvət etmişdilər. Anam bir banka qara mürəkkəb düzəltmişdi ki, məhkəmədə onun üzünə çırpsın. Lakin nə fikirləşdisə məhkəməyə getmədi.

## SULTANBƏY EL YADDAŞINDA

Sultanbəy xidmətçilərinə tapşırıbmış ki, yanına gələnlərə çörək yedirtməyincə evdə olub-olmadığını deməsinlər. “Birdən uzaqdan gələnlərə deyərdiniz ki, evdə yoxdur, ac qayıdarlar. Dağ yeridi, yaxşı olmaz”.

***

Ağanus ətrafındakı vuruşda Sultanbəyin dəstəsi dörd yüzdən artıq erməni qadınını əsir alır. “Onlarla necə davranaq?” - deyə Tərxanlı Fərzalıbəy soruşduqda Sultanbəy deyir:

- Buraxın getsinlər. Biz də qadın öldürsək, onda ermənilərdən nə fərqimiz?..

***

Tat dərəsi ətrafındakı vuruşda Sultanbəy görür ki, yaxınlıqdakı topçulardan biri xaç çevirib topu aşağı, yuxarı atır. Arxadan tullanıb həmin topçunu vurur. Özü daşnakların hücuma keçdiyi sahəni nişan alıb düşməni geri oturtdurur. Sonradan məlum olur ki, həmin topçunun anası erməni imiş, daşnaklara casusluq edirmiş.

***

Sultanbəy deyərmiş: “Ermənilər Qafqazlı deyillər. Onlar dünya ölkələrindən qovularkən bu yerlərdə özlərinə sığınacaq tapmışlar. Onlar Qafqaza gələndən bəri Qafqaz xalqları narahatdır. Biz ermənilərin Qafqazda qalıb-qalmamaqlarını Qafqaz xalqları ilə birlikdə müzakirə etməliyik”.

***

Üçtəpə, Qannıca, Qaragöl ətrafındakı vuruşlarda Sultanbəy ayağına çarıq geyib ağır topları çox vaxt özü idarə edərmiş.

Sultanbəy deyərmiş: “Vətənpərvər üçün vətənin daşı, qayası da silahdır”.

***

Sultanbəy Çalbayır igidləri arasında tez-tez atıcılıq yarışları keçirərmiş. Qalib gələnlərə bir at, bir tüfəng, bir xəncər bağışlarmış. Zabıx dərəsindəki qələbədən sonra Sultanbəy Çalbayırda silah zavodları tikdirmək istəyirmiş. O, silahları Çalbayırlılara nəinki müftə paylадar, hətta təlimçilər gətirtdirib necə atmağı da öyrətdirərmiş.

Sultanbəy Türkiyədən gətirtdiyi topçulara ayda onlar istədiyindən əlavə bir ovuc qızıl pul verərmiş.

***

Ermənilər əxlaqsız xəstə bir qadını Sultanbəyin kəndlərindən birinə göndərirlər ki, kişilərlə əlaqəyə girib yoluxdursun. Məsələni eşidən Sultanbəy qadını tutdurur. Həmin kəndin yaxınlığında ocaq qalatdırıb, qadını ora gətirdirir. Camaatın gözləri qarşısında qadına tövbə elətdirib göndərir Gorus şəhərindəki erməni kəşfiyyatına.

Bununla Azərbaycan kəndlərində erməni qadınlarının əxlaqsızlığına uzun illər son qoyuldu.

***

Andranikin göndərdiyi elçiləri Sultanbəy özü qəbul edərmiş. Sultanbəyin göndərdiyi elçiləri Andranik qəbul edərkən onu tanımasınlar deyə araya pərdə salıb danışarmış.

***

Çalbayırlıların maldarlıqda böyük səriştəsi var. Sultanbəyin fermalarında hər cür rəngdə on minlərlə mal varmış. Yaylaqlarda sağılmış süd Kürdhacı yağ-pendir zavoduna dağların döşü ilə saxsı borularla axıdılarmış. İsveçrədən yeni mal cinsini Azərbaycana ilk dəfə Sultanbəy gətirtdirmişdir.

***

Sultanbəy vətəndən gedərkən Kürdhacı kəndi yaxınlığındakı dağa çıxır. Zəngəzur dağlarına nigaran-nigaran baxaraq bu bayatını çağırır.

Mən aşiq, dolan gözüm,
Dol gözüm, dolan gözüm,
Gedərsən, qayıtmazsan
Vətəni dolan, gözüm.

## QAYĞIKEŞ HƏKİM, VƏTƏNPƏRVƏR GENERAL

Zəngəzurda Xosrovbəyi qayğıkeş həkim, vətənpərvər general kimi tanıyırdılar. O, Şuşa quberniyasında general olmasına baxmayaraq, həftənin altıncı

günləri kəndlərə gedər, müxtəlif xəstəliklərə tutulmuş adamları təmənnasız müalicə edərmiş. Zəngəzurda Xosrovbəyə otlar alimi də deyərlərmiş. O, quberniyanın alt otaqlarından birini yaşıl aptekə çeviribmiş. Yaz, yay aylarında Qırxqız, Lüllər, Çalbayır, Dəlidağ, Üçtəpə, Qannıca yaylaqlarından, Hacısamlı, Şəlvə, Kürdhacı, Mizmin, Kırs meşələrindən cürbəcür dərman bitkiləri yığdırıb, qış aylarında dərmanlar düzəldirmiş.

Xosrovbəyin təşkil etdiyi yaşıl aptekdə Kəlbəcər və Laçın dağlarındakı müalicə əhəmiyyətli onlarla növ mineral sular xüsusi şüşələrə doldurulub saxlanılarmış.

Xosrovbəyin həyatı haqqında maraqlı hadisələr danışırlar. Deyirlər ki, tibbi təhsil alarkən oxuduğu məktəbdə nadinc bir rus oğlanı Xosrovu duelə çağırır. Yeri gəlmişkən deyim ki, o vaxt rus məktəblərində duelə çıxmaq bir növ dəb idi. Xosrov razılaşır. Duel günü məsələni elə təşkil edirlər ki, ilk gülləni Xosrovu duelə çağıran atmalı olur. Rəqib Xosrovu sol gözündən yaralayır.

Yaralı və həyəcanlı olmasına baxmayaraq Xosrov sərrast atəşlə rəqibi biryolluq yerə sərir.

Şuşadakı General-qubernatorluq fəaliyyətindən danışarkən bircə bu faktı oxuculara çatdırmaq istəyirəm ki, qarabağlılar və zəngəzurlular Xosrovu Çar generalı kimi yox, elin vətənpərvər oğlu, qayğıkeşi, xilaskarı kimi tanıyırlarmış. Sonralar Xosrovbəy Azərbaycan Demokratik respublikasının Hərbi naziri olmuşdur.

Xosrovbəy tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi ürəkdən sevən ziyalılarımızdan biri imiş. O vaxtının xeyli hissəsini mütaliəyə həsr edərmiş. Şair və alimlərimizin yaradıcılığına böyük ehtiram və hörmətlə yanaşarmış. Xosrovbəyin Şuşadakı evlərindən birini şərq kitabxanası adlandırırlarmış. Deyirlər ki, Xosrovbəy quberniyanın işçilərinə bəzən şərq ədəbiyyatı, tarixi, fəsəfi haqqında mühazirələr də oxuyarmış. Firdovsidən, Xaqanidən, Nizamidən, Xəyyamdan, Sədidən farsca, Həsənoğludan, Nəsimidən, Xətaidən, Vaqifdən Azərbaycanca əzbər şerlər deyərmiş. Müasirlərindən Əhməd Cavadın yaradıcılığını daha çox sevərmiş.

Bu da məlumdur ki, Xosrovbəy Bakıda Əhməd Cavadın xəbəri olmadan onun şerlər kitabını çap etdirmişdir. Bu xəbəri eşidən Əhməd Cavad qəzetlərin birində Xosrovbəyə qədirbilənliyinə görə təşəkkürünü bildirmişdir.

Xosrovbəyin 1923-cü ildən sonrakı həyatı Türkiyə, Almaniya, Fransa ilə bağlıdır.

Türkiyədə olarkən 1941-1945-ci illərdə sovet-alman müharibəsində əsir düşmüş Azərbaycanlıların həbs düşərgələrindən azad olmalarında böyük xidmət göstərdiyi, Almaniyada olarkən universitetlərdən birində professor olduğu, Fransada yaşayarkən Azərbaycan xəstəxanası açdığı haqqında söhbətlər gedir.

## TƏRXANLI FƏRZALIBƏY

Kırs dağından üzü Həkəri çayına tərəf onlarla Azərbaycan kəndini daşnak fəlakətindən xilas edən Tərxanlı Fərzalıbəy haqqında hörmətlə danışırlar.

Fərzalıbəy gəzdiyi dağların, dərələrin, meşələrin hansının nə dərəcədə strateji əhəmiyyətə malik olduğunu yaxşı bildiyindən dəfələrlə bu yerlərdə öz çevik dəstəsi ilə daşnak qruplaşmalarına ağır zərbələr endirmişdir.

## KIRS ƏMƏLİYYATI

Şuşadan Fərzalıbəyə gizli xəbər çatdırırlar ki, daşnaklar Topxana meşəsindən Mizmin istiqamətində Kırs dağına silah daşıyırlar. Məqsədləri Sərt yoxuşundan aşıb Palantökəni tutmaqdır. Əlavə bildirirlər ki, daşnaklar özləri ilə çoxlu təlim görmüş itlər də götürmüşlər.

İtləri ermənilərə Antantanın cənub qüvvələri bağışlamışlar. İtlər Qafandan Hadruta arabalarla gətirilmişdir. Fərzalıbəy Şuşadan gələn xəbərçiyə bildirir ki, lazımi tədbirlər görürük.

Bir axşam Maxsudlu Bəşirbəy, Ədilbəy, Şükürbəy öz dəstələri ilə Fərzalıbəyə köməyə gəlmişdilər. Tərxanlı kəndi hərbi düşərgəyə oxşayırdı. Fərzalıbəyin evində zərbəni nə vaxt və haradan endirmək haqqında məsələ müzakirə olunurdu. Fərzalıbəy deyəndə ki, daşnaklar bu hücuma təlim görmüş ingilis itləri ilə gəlirlər, Şükürbəy yerindən cəld və bir qədər əsəbi qalxıb: - itləri itlərə boğduracam, - deyir.

O bir qədər fikirləşdikdən sonra əlavə edir ki, Sərt yoxuşundan biz tərəfə bircə yol var. Bu yol hər tərəfdən meşə ilə əhatə olunmuş böyük düzün ortasından keçir. Mən itləri uzun kəndirlərlə düzün ortasındakı ağaclara bağlatdırıb öküzləri kəsdirib tökəcəyəm qabaqlarına. Daşnaklar dərədən çıxan kimi itləri görüb cumuşacaqlar. Burada boğuşma, böyük mərəkə yaranacaq. Ermənilər itlərini aralaşdırmaq üçün düzə toplaşacaqlar. Onda bizimkilər öz sözlərini deyə bilərlər.

Bəşirbəy Şükürbəyin təklifinə tərəfdar çıxdı. Bir azdan hamı bu təkliflə razılaşdı. Fərzalıbəy yerindən bir qədər gülümsər üzlə qalxdı. Mən də bu təkliflə razılaşıram, - dedi. Bu şərtlə ki, böyük taladakı mərəkəni Şükürbəy özü təşkil etsin. Şükürbəy bu işə çoxdan hazırlaşan adam kimi yerindən qalxıb dedi: - Əlbəttə, özüm təşkil edəcəyəm. O üzünü Fərzalıbəyin qardaşı Nəcəfquluya tutub təcili on köpək, on qancıq və altı öküzün Böyük talaya apartdırılmasını tapşırdı. Özü isə Abbasquluoğlu Əli ilə talanı mühasirəyə almaq üçün dəstə ilə getməyi qərara aldı. Fərzalıbəy Ədilbəyə tapşırdı ki, Tərxanlı kəndinin qadın və uşaqlarını Türklər, Fərəcan, Malxələf kəndlərinə göndərtdirsin. Özü Tərxanlı qadınlarının sabahkı

döyüş üçün bişirdikləri dolu ət qazanlarını, çörək fərməşlərini atlara yüklətdirib Böyük taladakı dəstələrə yola saldıqdan sonra Tərxanlı kəndinin ətrafında pusqu yaradıb səhərə yaxın Böyük talaya gəldi.

Şükürbəy həmin gecə itləri düzün ortasındakı ağaclara ayrı-ayrı uzun kəndirlərlə bağlatdırıb öküzlərdən bir neçəsini kəsdirib tökdürmüşdür itlərin qabağına. Dəstələri nal şəklində düzərək talanı meşənin içərisindən mühasirəyə aldırmışdır.

Hamı hazır dayanıb işarə gözləyirdi. Sol cinahda Bəşirbəyin dəstəsi pulemyotla böyük talanın ortasını nəzarət altında saxlayırdı. Sağ cinahda ovçu Balakişinin beşatılanlı dəstəsi dayanmışdır. Talanın üst tərəfində Şükürbəy, qayalıqda Fərzalıbəy ümumi mühasirəyə nəzarət edirdilər.

İşıqlaşanda ermənilər Sərt yoxuşundan çıxıb böyük talaya çatan kimi yanlarındakı itlər düzün ortasındakı itləri görüb cumuşdular. Güllə səsi eşitmədiklərinə görə ermənilər boğuşan itləri aralaşdırmaq üçün düzün ortasına axışdılar. Az vaxtda hay-küyə gələn ermənilərlə düz doldu. Kimi tüfənglə, kimi ağacla boğuşan itləri aralaşdırır, bəzən fürsət düşəndə düzə bağlanmış itləri güllə ilə vururdular.

Şükürbəy: - vaxtdır, fürsəti əldən verməк olmaz. Bu böyük qüvvədir. Əzişdirə bilsək qələbə bizimlədir. Fərzalıbəy, işarə ver, - dedi.

Fərzalıbəy Böyük qayanın yanında işarə verən kimi güllələr talanın ortasına yağış kimi yağdı. Pulemyotlar talanın ortasındakı erməniləri itlərə qatıb biçirdi. Ovçu Balakişinin dəstəsi meydandan qaçmaq istəyənləri qırırdı. Bir neçə saat davam edən bu vuruşda Fərzalıbəyin dəstəsi itkisiz qalib gəldi. Qırılmış ermənilərin silahlarını qatırlara yükləyib qələbə ilə Tərxanlı kəndinə qayıtdılar. Bu qələbə yaddan çıxmaz bir hadisə kimi danışılır. Deyirlər, sonralar Qarabağ erməniləri Kırs dağına baxanda gözlərini yumarlarmış ki, Kırs dağı bizə qənim oldu.

## İLDIRIM DAĞLARDA ÇAXIR

Əsrin əvvəllərində dünya imperializmi xammal ölkələrinə hərbi yürüşlərə başlamışdır. Onun "Qafqaz səfəri"nin bələdçiləri erməni daşnakları idi. Andranikin böyük ordusunun indiki Laçın rayonunun Zabıx kurqanında məğlubiyyətindən sonra daşnaklar Antantanın cənub qüvvələri ilə əlaqəyə girib yenidən baş qaldırmışdılar.

Bu vaxt daşnaklardan Dro özünü "Qafqaz qartalı", Njde isə özünü "Zəngəzur Kralı" elan etdi.

Daşnak hökuməti Dro və Njdedən tələb edirdi ki, 2 ay müddətində Şamaxıda, Şuşada, Gəncədə erməni bayrağı dalğalanmalıdır. Onlar öz qüvvələrini Gorus şəhərində təcili cəmləşdirib Azərbaycana qarşı böyük hücum əməliyyatına başladılar.

Vəziyyət çox ağır idi.

Çingiz İldırım Çalbayırın dağ kəndlərini silahlandırıb təcili Bakıya qayıtdı və Bakı neft mədənlərində işləyən Zəngəzurlu fəhlələrə müraciət etdi ki, ata-baba yurdlarını qorumaq üçün vaxt itirmədən kəndlərə qayıtsınlar.

Bakı mühitində oyanmış, siyasi cəhətdən bir qədər yetkinləşmiş yüzlərlə fəhlə Çingiz İldırımın çağırışından dərhal sonra Zəngəzur kəndlərinə döndü. Az vaxtda çoxlu f ə d a i dəstələri yaradıldı.

Abdalanlı Şirin oğlu Cəbrayılla birlikdə Çingiz İldırımın tapşırığına əsasən Gorus həbsxanasından 300-dən artıq dustağı azad etdilər. Njde isə, ilk növbədə, dustaqları qırmaq istəyirdi...

## NƏBİ MEYDANI

Çingiz İldırımın qardaşı Şəmilbəyə göndərdiyi silahlar vaxtında çatdı. Şəmilbəy həmin gecə silahları Həkəri və Bərgüşad çayları boyunca yerləşən kəndlərdəki f ə d a i dəstələrinə paylatdırdı. Njdenin atlı dəstələrinin keçəcəyi yollarda yüzlərlə quyu və çalalar qazdırdı. Məzməzək-Cicimli istiqamətində Şotlanlı kürdlərinin seçmə dəstələrindən etibarlı pusqu yaratdı. Məlik-Əjdər türbələri yaxınlığındakı əsas vuruş yeri seçib ona “N ə b i meydanı” adı verdi.

Dro atlı dəstəsi ilə Azərbaycan kəndlərinə, xüsusi ilə Məzməzək, Cicimli, Qazdərəsi, Orta oba, Abasqışlağı, Güləbird, İrəfi və Həkəri kəndlərinə zərbələr endirmək, Mizmin meşəsindən keçib Hadruta çıxmaq istəyirdi.

Səhərin qaranlığında hücuma keçən daşnak süvariləri Qoşa təpələrə çatanda gözləmədikləri tələyə düşdülər. Atlar bir-birinin ardınca quyu və çalalara düşür, üstündəki adamları yerə elə çırpırdı ki, yıxılanın bir daha ayağa qalxmağa taqəti olmurdu. Fürsətdən bacarıqla istifadə edən Dəli Xanların dəstəsi “Nəbi meydanı”nda xüsusilə fərqləndi. Bu dəstə daşnakların böyük bir süvari ordusunun axırına çıxdı.

Doğrudur, Məlik Əjdər türbələri ətrafındakı qədim qəbiristanlıqda yeni bir məzarıstan da yarandı. Bu, Şotlanlı kürdlərinin qəbiristanı idi.

Beləliklə, Zəngəzur f ə d a i l ə r i əsrin əvvəlində böyük mərdlik və igidliklə “Qafqaz qartalı” Dronu sərçəyə, Zəngəzur “kralı” Njdeni isə bambılıya döndərib, Zəngəzurdan qovdular.

## BƏHLUL CAHADI

Bəhlul Behcət dünyəvi elmlərə yiyələnmiş böyük idrak sahibi idi. O, Nizaminin yaradıcılığını elmi cəhətdən təhlil etmiş, Nizami və Qafqaz Folkloru mövzusunda monoqrafiya hazırlamış, Sarı Aşığın əsərlərini toplayıb əlyazma şəklində kitab tərtib etmiş, Qaçaq Nəbinin qəhrəmanlığına həsr olunmuş səhnə əsəri yazmış, “Quran”ın Azərbaycan dilinə tam tərcüməsini ilk dəfə başa çatdırmışdır.

Zəngəzurda müsəlmanlar arasında ağır bir yaranı sağaltmağa müvəffəq olmuşdur.

Məlumdur ki, əsrlər boyu sünnülərlə şiələrin ideya ayrılığı İslam dinin sürətli inkişafına böyük maneçilik törətmişdir.

Bəhlul Behcət Zəngəzurda ideya ayrılığını nəinki aradan qaldırmış, hətta əqidə birliyindən mehriban və möhkəm silahlı dəstələr yaratmışdı. Bu dəstələrin məqsədi daşnakları Qafqazdan biryolluq süpürüb atmaq idi. Bəhlulun d i n ordusu Laçın dağlarından Qarabağa aşa bilməyib Araza tərəf dönmüş daşnak ordusuna qarşı ən böyük s i p ə r olmuşdur.

Bu sipəri yarmaq, dağıtmaq “böyük Ermənistan” haqqında düşünənlərin əsas arzuları idi. Daşnaklar yaranmış vəziyyətdən bacarıqla istifadə edə bildilər. Çünki Zəngəzurdakı Azərbaycan bolşevik təşkilatının sıralarında siyasi cəhətdən yetkinləşməmiş, ehtiyac üzündən bolşevik olmuş, pul verilsə atasına belə güllə atmağa hazır olan çoxlu agentlər vardı. Bilavasitə onların əli ilə də Bəhlulun xilaskar dəstələrini məhv edə bildilər. Burada Nəzər Heydərovun “Zəngəzur dağlarında” kitabından bir epizodu oxucuların nəzərinə çatdırmaq istəyirəm.

“Biz axşamüstü Gorusa çatdıq. Zəngəzur İcraiyyə komitəsinin müavini, həm də daxili işlər idarəsinin rəisi Saak Ter-Ayrapetyan, Qəza milis rəisi Avanes Akopyan, hərbi komissar Aşot Abramyan və başqaları var idi.

Mən qəzamızda baş vermiş hadisə barədə qısaca məlumat verdim və xahiş etdim ki, bizə mümkün olsa, kömək etsinlər. Birinci Ter Ayrapetyan çıxış etdi.

O dedi:

- Bu əfəndinin fitnəsinin qabağını almaq bizim borcumuzdur. Avanes Akopyan təklif etdi ki, kömək edilsin. Aşot Abramyan onun sözünə qüvvət verib dedi:

- Burada doğru dedilər: Fitnəkarlıqdan qorxmağa heç bir əsas yoxdur. Bu, təhlükə deyil, təhlükə işi ləngitməkdir.

İndi Bəhlul əfəndi gizli deyil, açıq çıxış edir.

Baqrat, Ter-Ayrapetyana müraciətlə dedi:

- XTH-dən bir dəstə yaradın və özünüzlə pulemyot götürün! Hazırlıq işlərini bu gecə qurtarıb, sabah tezdən yola düşün!

Kostanyan, Akopyan, Abramyan və Aqaababov yoldaşlar da sizinlə gedəcəklər. Əməliyyatın gedişi barədə tez-tez məlumat verməyi unutmayın".

Hərgah Nəzər Heydərov sağ olsaydı mən onu xalqımızın düçar olduğu bu müsibətlərlə tanış edib deyərdim:

Ermənininin istər daşnakı, istər bolşeviki, istərsə də kommunisti həmişə "böyük Ermənistan" haqqında düşünmüşlər.

Sizin erməmi puleymotu ilə Bəhlul ordusunu qırmağınız küçələrin işıq dirəklərini qırıb eli qaranlıqda qoymağa bənzəmirmi?

Daşnak agentlər çox ara qızışdırmadan sonra Mircəfər Bağırovun Zəngəzura gətirilməsinə nail oldular. Bəhlul Behcət haqqında Bağırova çox dəhşətli məlumatlar verdilər. Bağırovun göstərişi ilə Bəhlulu tutub 10 il Bayıl qazamatında saxlayırlar. Bəhlul Bayıl qazamatında olarkən zindanı Avropa alim və filosoflarının kitabxanasına çevirir. Bayıl qazamatında yatan məhbuslar Bəhulun böyük din xadimi, müdrik zəka sahibi olduğunu bildikdən sonra onun qaldığı zindanı sitayiş yeri, pərəstiş evi sayırlar. Qazamatda Bəhlula iyanə yığırlar, nəzir verirlər, evlərdən gətirilmiş ərzaq və geyimlə köməklik edirlər. On il tamam olur. Lakin Bəhlulu yenə buraxmırlar. Bəhlul Stalinə məktub yazır ki, qazamatda da qayda-qanun olmalıdır. Mən on illik cəzamı çəkib qurtarmışam. Hərgah günahkaramsa məhkəmə yolu ilə mənə yenə də cəza versinlər. Yox, əgər günahsızamsa, məni həbsdən azad etsinlər. Məktubun cavabı Bağırova göndərilir. Bağırov Bəhlulu buraxdırır. Ona yataqxanada yer verdirib "Azərnəşr"in tərcümə şöbəsində işlə təmin etdirir. Bəhlul burada tərcüməçi işləyir. Lakin ədalətsizlikdən təngə gəlmiş el filosofu həyatdan küskün yaşayır. Özünə fikir vermir. Hətta üzünü, saçını belə qırxdırıb səhmana salmır. Bir gün agentlərdən biri Bəhluldan soruşur:

- Bəhlul əfəndi, özünə niyə fikir vermirsən, başını niyə qırxdırmırsan?

Bəhlul cavabında deyir:

- Bu baş düşmənlərə xidmət edir. Mən ona qulluq etməyəcəyəm.

Daşnak agent bu cavabı olduğu kimi daşnak nazirə, o da xalq cəlladı Bağırova çatdırır. Bağırov göstəriş verir ki, onun ayağına ağır yük bağlayıb Xəzərin dərin yerinə atarsınız. Məqam gözləyən daşnak agentlər fürsəti əldən vermədən Bəhlulun ayağına ağır daş bağlayıb Xəzərin dərin yerinə atırlar. Beləliklə, daşnak agentlər Azərbaycanda bir işıqlı zəkanın da söndürülməsinə nail olurlar.

## DƏVƏ-DƏRƏ QIRĞINI

İnqilabi çevrilişdən xeyli sonra Mircəfər Bağırov Azərbaycan xalqının taleyini NKV-də işləyən daşnak agentlərə tapşırdı.

Əllərinə fürsət düşmüş agentlər Azərbaycan xalqının başına olmazın müsibətlərini açdılar. Onlar sərhəd rayonlarımızda daha məkrli iş görürdülər.

Zəngəzurda ermənilərə qarşı dayanmış əsas qüvvələrdən biri olan Əlyanlı elinə qarşı belə bir hiylə qurdular.

İrandakı daşnak agentlər əksinqilabi vərəqələr çap etdirib Əyanlı kəndlərindəki bulaqların başına, fermalara, yollara tökürdülər. NKV-dəki agentlər vasitəsi ilə yığdırıb Bağırova çatdırırdılar ki, Əlyanlılar farağat durmurlar.

Çox ara qızışdırmalardan sonra daşnak agentlər Bağırovu rus polku ilə Zəngəzura gətirə bildilər.

Camaatı xüsusi tapşırıqla Muradxanlı qəzasına yığdılar ki, sizi maraqlandıran suallara burada cavab veriləcək, narahat edən məsələlər həll olunacaq. Kimin nə təklifi varsa, burada deyə bilər. Bir sözlə, camaatı aldadıb görüşə topladılar.

Daşnaklar Bağırovun çırtdaqoz, kəmhövsələ olduğunu çoxdan bilirdilər.

Daşnak agentlər ağır bir cinayət törədirlər. Bağırovun köməkçisi İsmayılovu öldürüb qanını Əlyanlı camaatının üstünə tökürlər. İclas vaxtı qara xəbəri Bağırova çatdırırlar. Bağırov yerindən dəlicəsinə qalxaraq zaldakıların hamısını həbs etmək haqqında göstəriş verir. Rus əsgərləri camaatı həbs edib Muradxanlı kəndindən bir qədər aralıdakı Dəvə-Dərə deyilən yerə gətirirlər və burada hamısını vəhşicəsinə qırırlar. Bax burada Mircəfər Bağırov erməni daşnak agentlərinə tapşırıq verir ki, Əlyanlı elində uşaqların çarpayılarını açarsınız, hərgah oğlandırsa, bələkdə güllələyərsiniz.

İndiyə qədər Andranikin, Njdenin, Dronun hərbi basqınlarına qarşı igidliklə dayanan Əlyanlı eli acığa düşərək köçüb, dağılıb getdilər. Bundan sonra Qarabağdakı daşnaklar boş qalmış Azərbaycan kəndlərini təcili tutaraq özlərinə yeni məskənlər salıb Dağlıq Qarabağla Ermənistanın sərhədlərini xeyli yaxınlaşdırdılar.

## KİŞİ TAVAT

Tavat xanım Qubadlı rayonunun Başarat elində böyük ad-san qazanmış Kərbəlayi Məmmədin qızıdır. Kərbəlayi Məmmədin nəsli xeyirxah əməlləri ilə elin rəğbətini qazanmış nəsillərdəndir.

Ömrünün ahıl çağında Kərbəlayi Məmməd məktəb açmaq arzusuna düşür. Oğlanlarına Fərəcan kəndində məktəb tikintisinə başlamağı tapşırıb, özü isə dərs vəsaiti hazırlamaqla məşğul olur. Bəhlul Behcətə məsləhət görür ki, dərsliyi "Quran"ın ayələri, Firdovsinin "Şahnamə", Nizaminin "Xəmsə" , Sədinin "Gülüstan" və "Bustan" əsərləri əsasında tərtib etsin.

Kərbəlayi Məmmədin oğlanları Xozabird kəndindən erməni bənnaları gətirdib məktəbin tikintisinə başlatdırır. Hər iki sahədə yaxşı iş gedirdi: həm məktəb tikintisində, həm də dərs vəsaitinin hazırlanmasında. Lakin belə xeyirxah iş erməni bənnalarını narahat edir. Səbəb də bu idi ki, bu elm ocağı gələcəkdə Azərbaycanlı uşaqlarının gözlərinin açılmasına, elmə yiyələnmələrinə kömək edə bilər. Buna görə xain ermənilər aranı qarışdırmağa başladılar.

Ermənistanla Dağlıq Qarabağın sərhədlərini bir-birinə yaxınlaşdırmaq üçün Xozabirddən sərhəd dirəklərini çıxardıb gətirib, Fərəcan kəndinin yaxınlığındakı Topağac deyilən yerdə basdırırlar.

Həsənalı Bakıya gəlib yaranmış vəziyyəti lazımlı yerlərə xəbər verdi. Məsələdən duyuq düşən erməni agentləri təcili Həsən və Həsənalıya tələ qurdular. Xozabirddən iki qızı Həsən və Həsənalının dalınca saldırıb onları ələ aldılar. Bir az sonra qızlar hər iki qardaşı Xozabirddə eyş-işrət məclisinə dəvət edirlər. Məclisdən sonra onlara xüsusi yerlər saldırıb, yuxuya verib, silahlarını götürürlər.

Nalbənd Sərkis həmin gecə hazırladığı nalı səhər Həsənin ayağına mıxlayır. Qızardılmış şişlərlə gözlərini ovur. İti balta ilə əl-ayağını odun tək doğrayır. Hərə Həsənin növbə ilə bədənindən bir tikə kəsib köhnə palazın üstünə tullayır.

Hadisədən on gün sonra məsələnin üstü açılır. Xəbər Başarat elinə çatır. Bu dəhşətli xəbər Kərbəlayi Məmmədi kövrəldirsə də, lakin o, təmkinini itirmir. Bu vaxt Başaratlılarla Xozabirdlilər arasında başlaya biləcək qanlı qırğın Kərbəlayi Məmmədin bir işarəsindən asılı idi.

Gənc Tavat atasının qarşısında baş əyib qardaşlarının qanını özü alacağını bildirir. Kərbəlayi Məmməd qızına təsəlli verib deyir ki, hələ Başarat eli sağdır. Onun igidləri at belində, fədailəri dağ keçidlərindədir.

Tavat xanım inadından dönmədi. Öz üzərində məşqlər etdi. Meşədə uçan quşlara güllə, ilxıda bərk qaçan atlara kəmənd atdı, özünü tam sınaqdan keçirdikdən sonra Xozabirdlilərin meşədən odun yığıb apardıqları yolları kəsməyə başladı.

Bir gün Sərkisin öz oğlu ilə odun yığmağa getdiyini görən Tavat xanım fürsətdən istifadə edib dar keçiddə özünə əlverişli pusqu düzəltdi. Ermənilər hədəfə çatan kimi Tavat xanım güllə ilə hər ikisini qatırdan saldı. Oğlunun əlindən düşmüş tüfəngi götürmək üçün çabalaya-çabalaya özünü kolluğa salmaq istəyən Sərkisə Tavat xanım bir patron da boşaltdı.

## QALALI QIRĞINI

Bu qırğının günahkarları S.Şaumyan, A.Mikoyan idi. Andranikin böyük ordusunun Gorus-Xınzirək-Dığ-Zabıx-Abdallar-Şuşa istiqamətində, Njde və Dronun Gorus-Xınzirək-Cicimli-Qaradağlı-Hadrut istiqmətində Zəngəzurdan

Qarabağa aşa bilmədiklərini görən S. Şaumyan və A. Mikoyan üçüncü "Dəhliz" yolu açmaq fikrinə düşdülər. Bu dəfə "Martunindən Dəli Nəzərin dəstəsini Xozabirdə, Hadrutdan Tevonun dəstəsini Tağ kəndinə gətirtdirib ciddi təlim keçdikdən sonra Xozabird-Mizmin-Qalalı-Güləbird-Xınzirək-Gorus istiqamətində hərəkət etmək tapşırığı verdilər:

Bu vaxt Çingiz İldırımın Xəzər dənizində "Dalğa", Zəngəzurda "Qartal" kəşfiyyat mərkəzi fəaliyyət göstərirdi.

"Dalğa" kəşfiyyat mərkəzi Çingiz İldırıma xəbər verdi ki, İrandakı daşnaklar S. Şaumyanın ünvanına göndərdikləri silahları Ənzəli limanından qaytarıb Xudafərin körpüsündən keçirərək Xozabirtdəki dəstələrə çatdırmağı planlaşdırıblar.

Çingiz İldırım "Dalğa" kəşfiyyatının üzvü, faytonçu çopur Əlini yanına çağırtdırıb axşam Qubadlıya getmək üçün iki at hazırlamasını tapşırdı və özünün də getməsini təklif etdi. Çopur Əli razılığını bildirib Çingiz İldırımdan ayrıldı.

Zəngəzurdakı "Qartal" kəşfiyyatının üzvlərindən Ağa Şirin (onun ləqəbi "Çalağan" idi) vaxtı ilə Nargin adasında dustaq saxlanılırdı. Çingiz İldırım onu gəmi ilə sahilə qaçırtdırmışdı. Bir də "Əlyanlı Sevdimalı (o "qızıl quş" ləqəbi ilə fəaliyyət göstərirdi) Çingiz İldırıma Zəngəzurdakı vəziyyət haqqında xəbər gətirmişdi. Hər ikisi Bakıya atlı, silahlı gəldiklərini bildirdilər. Onlar məlumat verib bildirdilər ki, daşnakların əsas qüvvələri Yal yurddan Dərə yurda, oradan Ziyarət dağına, Tiliş daşa tərəf meşəyə soxulublar. Bu əməliyyatda Arpagədik, Tağ, Tuğ, Tezxarab erməniləri də iştirak edirdilər.

Çingiz İldırım soruşur ki, bəs bizimkilər nə tədbir görüblər? Ağa Şirin cəbhənin genişliyi barədə qısa məlumat verərək dedi ki, Ağ dəyirmandan ta Əlyanlının üstünə qədər geniş ərazidə hücumu davam etdirirlər. Hümbət Şərif oğlunun Qozlu dərədən vurulmasından sonra döyüş ciddi xarakter almışdır.

Çingiz İldırım Ağa Şirinin sözünü bir qədər tez kəsərək nigarançılıqla soruşur: Bəs onlara qarşı kim və nə ilə vuruşurlar?

Sevdimalı sözə qoşularaq iti-iti danışıb dedi ki, Məzməzəklilər Papıllı yaldan Maxsudlu üstünə qədər sahəni Cicimli, Qaz dərəsi, Bayramuşağı, Malxələf, Türklər kəndinin camaatı ilə birləşib mühasirəyə alıblar. Həkəri dərəsi istiqamətində Əlyanlı elləri hərəkət edib Mizmin meşəsində böyük səngərlər yaratmışlar. Ağa Şirin sevincək əlavə elədi ki, Pələng Rəsul cəbhənin bir tərəfində tək durur. Çingiz İldırımın könlünü açmaq üçün bir qədər gülümsər halda: "Çingiz əmi, - dedi -bilirsiniz, Pələng Rəsul kənddən bir qucaq papaq yığıb aparıb daşların, kolların üstünə qoyub, gah ordan, gah burdan güllə ataraq erməniləri Şiş yurddan qovdurub". Ermənilər elə biliblər ki, doğrudan da burada böyük bir dəstə var. Çingiz İldırım bir qədər gülümsünüb: - sağ olsun, tanıyıram, çox igid adamdı, - dedi:

Hava qaranlıqlaşırdı. Çopur Əli təcili içəri girib bildirdi ki, hər şey hazırdı. Çingiz İldırım, Sevdimalı, Ağa Şirin, Çopur Əli Qubadlıya yola düşdülər. Onlar gecədən xeyli keçmiş Qarasu kəndinin kənarındakı çayxanaya döndülər. Atdan düşüb içəri girmək istəyərkən qoca, nurani bir kişinin ağladığını görüb təəccübləndilər.

Çingiz İldırım qocaya yaxınlaşıb bikef olmasının, qəmli-qəmli ağlamasının səbəbini soruşduqda qoca kövrələrək daha da bərkdən hıçqırıb ağladı. Bir azdan gözünün yaşını silib dedi ki, indicə iki atlı kəndlərə xəbər apardı ki, ermənilər Şamaxı yaxınlığında 700-dən artıq Azərbaycanlını qırıblar. Qırğına deyirlər inqilabçı Şaumyan rəhbərlik edirmiş. Danışırdılar ki, o üç gün Mərəzə kəndi yanında hadisəyə istiqamət verirmiş. Qoca danışdıqca qəzəblənən Çingiz İldırım cibindən qələm çıxarıb nəsə yazdı, sonra kağızı Sevdimalıya verib tapşırdı ki, təcili çatdırsın Xudafərin körpüsündən Qarabağa silah aparmaq istəyənləri Qumlaq kəndində izləyən Zilanlı Kürd dəstəsinə.

Çingiz İldırım Ağa Şirin ilə Sevdimalını yola salıb, Şaumyanla hesablaşmaq üçün çopur Əli ilə təcili Bakıya qayıtdı. Dəniz kənarındakı evlərinə çatanda yenicə işıqlaşırdı. Əlini “Dalğa” kəşfiyyat mərkəzinə göndərib tapşırıq verdi ki, Şaumyanın Bakıya qayıtmasını nəzarət altına alsınlar. Özü sakit iş otağına girib yol paltarını dəyişdi. Dənizə tərəf pəncərəni açıb dəhlizdə bir qədər o tərəfə, bu tərəfə getdikdən sonra kəşfiyyat mərkəzinə zəng vurdu. Əlinin ora gəlib çıxmasını soruşdu. Telefon söhbəti sərt və çox qısa oldu. Əli kəşfiyyat mərkəzinə girəndə Balıqçı Qulam Çingizin telefonla çox qəzəbli danışığını ona bildirdi. Əlavə elədi ki, mən birinci dəfədi Çingiz İldırımın belə qəzəbli danışdığını eşitdim. Əli Şaumyanın Şamaxı ətrafında Azərbaycanlıları qırdırması əhvalatını yoldaşlarına çatdırdı. Kəşfiyyat təcili Bayıl, Lökbatan, Biləcəri, Balaxanı, Razin, Zığ yollarına nəzarətçi qoydu. Bütün günü yollarda qalan kəşfiyyatçılar gecəni də qalmağa razılaşdılar. Gecədən xeyli keçmiş Şaumyanın bir dəstə adamla Sulutəpədən Bakıya gəldiyini bildilər. Onları güdüb Çəmbərəkənddə Şaumyanla gələn ermənilərdən birini tutub zibilli dərədə gizləyib vəziyyəti Çingizə xəbər vermək üçün Bayıla gəldilər. Çingiz bütün gecəni yuxusuz, gündüzü həyəcanlı idi. Qırçı Rzabala ilə çörəkçi Tələt içəri girib Şaumyanın bir dəstə adamla Sulutəpə tərəfdən gəlmələrini və onlardan birini Çəmbərəkənddə evinə çataçatda qəflətən yaxalayıb oğurladıqlarını bildirdilər. Çingiz İldırım həmin ermənini təcili yanına gətirmələrini tələb etdi. Rzabala ilə Tələt qayıdıb bir azdan ermənini Çingizin yanına gətirdilər. Erməni əvvəlcə Çingizə məlumat verməkdən imtina etdi. Çingiz Tələtə işarə etdi ki, ermənini “isladıb” gətirsinlər. Bir saatdan sonra hər şeyi boynuna alan ermənini yenidən Çingizin yanına gətirdilər. Çingiz bütün informasiyaları aldıqdan sonra Rzabalaya əli ilə bildirdi ki, aparıb o dünyaya göndərsinlər.

Çingiz mizin üstündəki xəritəsində bir gəmi şəkli çəkib oxla dənizin dərinliyinə apardı. Sonra yerindən cəld qalxıb “Qartal” kəşfiyyatından alınan məlumatlarla tez-tez onu tanış etmələrini bildirib getdi. Qapıdan çıxanda Ağa Şirinin Nargin adasında adamların ayağına ağır daş bağlayıb gecələr dənizə tökdüklərini söylədiyi yadına düşdü. Geri qayıdıb Nargin adasındakı hadisələri izləmək üçün tapşırıq verdi.

“Qartal” kəşfiyyatı Araz çayı sahillərində olan Qumlax, Məmmədbəyli, Zilanlı, Ağalı, Xanlıq Fədai dəstələrinə xəbər verdi ki, Xudafərin körpüsündən Xozabirdə daşnakların silah aparacaq dəstəsini nəzarətə alsınlar. Mümkün qədər tərksilah etməyə çalışsınlar. Qalalı ətrafına lazımlı qüvvələrin çatdırılmasına görə, Tevonun dəstəsi gecə qəflətən hücum edib Qalalı camaatını qırıb, mal-qaranı yığıb apararkən Əlyanlı igidləri Sarı yoxuşda onları mühasirəyə alıb, hamısını qırıb, malları əllərindən alırlar. Ardıclı yolda Pələng Rəsul o qədər güllə atır ki, qarşısında kiçik giliz yolu yaranır. O vaxt Rəsulu görənlər danışırlar ki, tüfəngin tətiyini çəkməkdən barmaqlarının əti də getmiş imiş. Məhz Əlyanlı igidlərinin qəhrəmanlığı sayəsində Zəngəzurdan Qarabağa üçüncü “Dəhlizin açılması” da boşa çıxdı.

Bu vaxt Çingiz İldırım belə bir qənaətə gəlmişdir ki, hazırki vəziyyətdə xalqı daşnak fəlakətindən xilas etmək əsas məsələdi. Tarix gec-tez Çingiz İldırımın Zəngəzurda və Bakıda daşnaklara qarşı apardığı qəhrəmanlıq mübarizəsini üzə çıxaracaq.

## DORHUNU-ANDARAŞAD FACİƏSİ

Ermənilərlə qonşu, yoldaş, dost olanlar axırda belə nəticəyə gəliblər ki, itdə vəfa var, ermənilərdə yox.

Dorhunu-Andaraşad kəndində ilk dəfə yaşayış məskənini azərbaycanlılar salmışlar. Dorhunlu azərbaycanlılar gözəl, yaraşıqlı evlər tikdirməyi çox sevərdilər. Kənddəki evlərin əksəriyyəti ikimərtəbəli, geniş aynabədli, böyük zallı otaqlardan ibarət idi. Bu evləri görənlər həmişə fərəh hissi keçirərdilər. Azərbaycanlılar bu evləri çox vaxt erməni ustalarına tikdirərdilər. Bağ-bostan üçün bərəkətli torpağı, gözəl təbii mənzərəsi, şəffaf saf sulu bulaqları olan bu yer görənləri məftun edərdi. Bu yerlərə gələnlər ilk görüşdən burada ev tikib qalmaq arzusuna düşərdilər.

Erməni ustaları azərbaycanlıların evlərini tikib qurtardıqdan sonra imkanlı azərbaycanlılara yalvarırdılar ki, dolanmaq üçün kiçik bir daxma tikməyə torpaq versin. Təmiz ürəkli, böyük səxavətli azərbaycanlılar nəinki torpaq verərdilər, hətta evin bütün tikinti materialına köməklik edər, üstəlik ermənilərə bir balalı inək də bağışlayırdılar ki, qoy qatığından, südündən istifadə etsinlər.

Ümumiyyətlə, özlərini “sədaqətli” nökər kimi tanıtdırmağı bacaran ermənilər azərbaycanlıların qılığına girib özlərinə Dorhunu kəndində xeyli ev tikə bildilər. Bu evlərin sayı zaman keçdikcə artmağa başladı.

XIX əsrin axırlarına yaxın ermənilər yenə “erməni xəstəliyinə” tutuldular. Ara qarışdırmağa, dələduzluğa başladılar. Çöldə azərbaycanlıların mal-qarasını oğurladılar, kənddə bir kişinin ot tayasını yandırdılar. Hər yerdə azərbaycanlıların ayağından çəkməyə başladılar.

XX əsrin əvvəllərində Tayqulaq Andranikin quldur ordusu Zəngəzura gələndə vəfasız ermənilər daşnaklara bələdçilik edib gətirib doldurdular Dorhunu kəndinə və başladılar azərbaycanlıları hədələməyə, təngə gətirib bezikdirməyə.

Bu gün Dorhunu kəndinin erməni “ağsaqqalları” azərbaycanlıları yığıb deyirlər ki, ara sakitləşənə kimi gedin aşağı kəndlərdə qalın. Biz sizin mal-qaranızı, ev-eşiyinizi qoruyub saxlayarıq. Ara sakitləşəndən sonra yenə qayıdıb gələrsiniz öz evlərinizə. Təmiz qəlbli azərbaycanlılar bu təklifə inanırlar. Hətta kəndin ortasında böyük palıd ağacının kölgəsində bir neçə qoyun kəsdirib, gözəl süfrə açdırıb, bir yerdə çörək kəsirlər. Sən demə, alçaq ermənilər azərbaycanlıları aldadırlarmış. Dorhunu kəndinin Qrikor, İsak, Aşot kimi “ağsaqqalları” da azərbaycanlıları salamat ötürmək üçün gedənlərə qoşulurlar. Yolda daşnaklar birdən şuluqluq edər deyə özləri ilə kənddən bir neçə silahlı köməkçi aparırlar.

Kənddən xeyli aralanıb dərəyə enəndə vicdansız, yediyi çörəyə xain çıxan ermənilər azərbaycanlıları mühasirəyə alıb uşaqlı-böyüklü vəhşicəsinə qırırlar. Bir neçə cavan azərbaycanlı oğlanların qollarını bağlayırlar. Köçüb gedənlərin dolanışıq üçün götürdükləri ləvazimatları və qiymətli əşyaları böyük bağlamalara yığıb qolları bağlı azərbaycanlıların kürəyinə şələləyirlər ki, aparıb meşədə gizlətsinlər. Yolda Qaraş adlı bir qoçaq oğlan yavaş-yavaş qollarını açır. Yoldaşlarına sakitcə bildirir ki, mən qollarımı açmışam. Bir azdan bizi aparan ermənini vurub silahı əlindən alacağam. Sizin əllərinizi də açacağam. Diqqətli və cəld olarsınız. Meşənin dərinliyinə çatanda Qaraş qəflətən şələni kürəyindən atıb, erməniyə möhkəm bir kəllə vurur, cəld tüfəngi onun əlindən alıb, süngünü onun qarnına soxur və dəsmalı ağzına basır. Yoldaşlarının bağlı qollarını açır və bir-birinə qoşulub qaçırlar. Qabaqda görürlər ki, iki erməni bağda bostanı suvarır. Qəflətən cumub ermənilərin ikisini də tuturlar. Silahlarını alıb o dünyalıq edirlər. Qaraşgil Qubadlıya gəlib hadisəni camaata çatdırmaq istəyirlər. Yolda gedərkən bir qız uşağının fəryadlı qışqırtısını eşidirlər. Yoldan çıxıb səs gələn tərəfə gedirlər. Bir də görürlər ki, dərədə azərbaycanlıları qıran dığalar bulağın üstündə bir-birləri ilə tutaşıblar, özləri də sərxoşdurlar. Kənarda qolları bağlı üç azərbaycanlı qızını incidirlər.

Qaraş hadisə yerini diqqətlə izləyib ağaca bağlanıb başları kəsilmiş iki azərbaycanlı oğlanı yoldaşlarına göstərir. Sonra ermənilərin silahlarının harada

olmasını müəyyənləşdirib, kimləri qabaqca vurmağı yoldaşlarına tapşırır. Özü ağaclardan asılmış silahlara baxan ermənini nişan alır. Tez yüyürüb silahları yığışdırır. Bir qədər aralıda kola töküb qayıdır. Görür ki, sağ erməni qalmayıb.

Qaraş yaxınlaşıb qızların əllərini açır. Silahları götürüb qaçıb girirlər meşəyə. Qaraş görür ki, qızların yol getməyə taqətləri yoxdur. Silahları yoldaşlarına verib qayada onları gizlədir. Özü Qubadlıya gəlir. Bütün gecəni yol gələn Qaraş səhərə yaxın özünü Qubadlıya yetirir. Şəmil bəy Qubadlı camaatını tez ayağa qaldırır. Böyük bir dəstə silahlanıb ətraf kəndlərlə birlikdə meyitləri gətirmək üçün qırğın yerinə gəlir. Qaraş qayada gizlənmiş yoldaşlarını tapıb Qurdqalağı kəndinə göndərtdirir. Sonra öldürülənlərin meyitlərini götürmək üçün gedirlər. Hadisə yerinə çatanda görürlər ki, ermənilər gediblər. Amma vəhşi heyvanlar meyitlərə ciddi zərər vurublar. Qəflətən bir ayı kolluqdan çıxıb camaatın üstünə cumur. Onu vurub öldürürlər. Sonra bilirlər ki, gecə ayı 6 meyiti daşıyıb aralıda torpağa basdırıb.

Basdırmaq üçün meyitləri götürərkən görürlər ki, bir oğlan uşağı meyitlərin altında salamat qalıb. Uşağı götürüb göndərirlər Qubadlıya. Meyitləri ətraf Azərbaycan kəndlərinin qəbiristanlıqlarında dəfn edirlər. Axşam Qubadlılar bir neçə erməni kəndini dağıdıb viran qoyurlar. Bu hadisəni qələmə alanda mənə dedilər ki, meyitlərin altından tapılan uşaq hazırda yaşayır. Nurani bir qocadır. Mən onunla görüşməyə çalışdım. Lakin işimin çoxluğu imkan vermədi.

## XİLASKAR OVÇULAR

### OVÇU SULTAN

Ovçu Sultan hər iki gözü ilə nazik çöpü belə asanlıqla nişan alan mahir bir ovçu kimi tanınmışdı. Gəncliyində kəndlərini qalın meşələrdən kəndə basqın edən ayılardan, mal-qaranı canavarlardan, əkinləri donuz sürülərindən qorumaqla elin rəğbətini qazanmışdır.

Ovçu Sultan əliyə su içəndə, kəkliyə yuva üstə güllə atmazdı. O, əliyə sürətlə qaçanda, kəkliyə sürü ilə göydə uçanda güllə atardı. Vaxtı ilə kəndləri vəhşi heyvanların basqınından qoruyan Ovçu Sultan indi gözləmədiyi, ağlına gəlmədiyi dəhşətli hadisələrlə qarşılaşmalı olurdu. Belə ki, indi o çörək kəsdiyi, şad günündə qəlb açıqlığı ilə süfrəsində oturtduğu qonşusu Arama güllə atmalı idi. Çünki Aram başına yığdığı bir dəstə ilə kəndin mal-qarasını oğurlayıb aparmış, bulaqdan su doldurub evlərinə qayıdan qız uşağının başını kəsib yolun üstünə atmışdır.

Bu gün axşam çağı kənddə qəflətən dəhşətli qışqırtı, böyük çaxnaşma qopdu. Xəbər gəldi ki, Xozabirdlilər Qarabağ daşnaklarına qoşulub Başarat kəndini yandırmağa gəlirlər. Xəbər Ovçu Sultana çatan kimi tüfəngini götürüb Başarat

kəndi tərəfə gəldi. Ovçu Sultan gördü ki, onların əllərində tüfənglə bərabər kəndi yandırmaq üçün məşəllər də var. Ovçu Sultan üzünü göylərə tutub, “Allah keç günahımdan”, deyib sinəsini qayaya söykədi. Bir anda bu böyük quldur dəstəsini elə gülləbarana tutdu ki, quldurlar nəinki geri çəkildilər, hətta meydanda qalmış onlarla ölülərini də götürməyə macal tapmadılar. Daşnaklar Ovçu Sultanı girov götürmək üçün dəfələrlə müxtəlif hiylələrə əl atmışlar. Bir gün 12 nəfər Ovçu Sultanın həmişə ov ovladığı yerə gəlir. Pusquda dayanıb gözləyirlər. Ovçu Sultan adəti üzrə meşəyə gəlir, atdan düşüb xurcundakı ikinci kəməri belinə bağlayarkən ov üçün gətirdiyi tula yaxında hənirti duyub cumaraq hürməyə başlayır. Ovçu Sultan elə bilir ki, vəhşi heyvanlardan hansısa ona tərəf gəlir. Bir də görür ki, iki erməni əllərində kəndir lap yaxınlaşıblar onu tutmağa. Cəld tüfəngi üzünə alıb hər ikisini yerə sərir. Uzaqda dayanmış ermənilər güllə səsini eşitcək dolurlar meşəyə. Ovçu Sultan erməniləri yaralı burda qoyub, tez meşənin çıxacağındakı dar yolu kəsir. Xeyli gözlədikdən sonra bir də görür ki, on erməni meşədən çıxıb Başarat kəndinə tərəf gəlir. Özünə yaxşı mövqe seçmiş Ovçu Sultan beşatılanı ayağa çəkib, ermənінin onunun da vurub başlarını kəsir. Gərməşov çubuğu ilə atın quyruğuna bağlayıb gətirir kəndə.

Bu hadisədən sonra ermənilər bir daha bu yerlərdə görünmürlər.

## OVÇU BALAKİŞİ

Zəngəzurda ovçu Balakişini xeyirxah adam kimi tanıyırlarmış.

O ovladığı əlik, ceyran, turac, kəkliyi yaxınlıqdakı Azərbaycan kəndlərinə, donuz, qaban, ayı və başqa ov heyvanlarını erməni kəndlərinə çox vaxt müftə paylayarmış.

Balakişi quş qədər sərvaxt, şir qədər cəsarətli imiş. Deyirlər ki, onun qaçışında ceyran sürəti varmış. O, yol gedərkən çox vaxt arxların, çalaların, xəndəklərin üstündən tullana-tullana yeriyərmiş. Bəzən elə sürətlə qaçarmış ki, görənlər heyrətdən yerində donarmış. Onun Həmzəli kəndi yaxınlığındakı böyük yoxuşu atla çıxmağa səbri çatmazdı. At yavaş gedir deyə çox vaxt yoxuşu piyada çıxarmış.

Zəngəzur qocaları bu mahir ovçu haqqında maraqlı hadisələr danışırlar. Söhbətlərin birində deyilir ki, Qubadlı rayonunun Qayalı kəndindən sifariş göndərirlər ki, Quru dərədə canavarlar nəinki heyvan otarmağa imkan vermir, hətta adamların bu yerlərdən gediş-gəlişinə də maneçilik törədir. Xəbəri eşidən ovçu Balakişi səhərisi gün Sınıq yoxuşunun döşündə otlayan bir öküzün başına ip salıb onu həmin yerə aparır. Öküzü dərənin sakit yerinə ötürüb özü daşın dalında gizlənir. Bir azdan canavarlar kolluqlardan çıxıb öküzə tərəf cummağa başlayırlar. Balakişi ova gedərkən həmişə özü ilə iki tüfəng götürərmiş. Tüfənglərdən biri ilə

yaxın, o biri ilə uzaq məsafələrdəki ovu vurarmış. Bunun bir səbəbi də varmış. Silah təhlükəli anda birdən xarab oldu deyə ehtiyatlı tərpənərmiş. Bu dəfə də iki tüfəng götürübmüş. O, əvvəlcə yaxındakı canavarları nişan alır. Bir anda ikisini vurub o biri tüfəngi götürür. Qaçmaq istəyən canavarlardan beşini də vurur. Sonra canavarların ölənlərini daşların üstünə qoyub Həmzəli kəndinə qayıdır. Gecə burada qalıb səhər yenə Quru dərəyə qayıdır. Quru dərədən adlayıb Qayalıya getmək istəyərkən bir yalquzaq koldan Balakişinin üstünə atılır. Balakişi kordanı yalquzağın başına çaxıb özünü birtəhər qoruyur. Tüfəngi üzünə salıb yalquzağı yerə sərir. Qayalıya gəlib hadisəni nağıl edir. Qayalılar gəlib Quru dərədə öldürülmüş canavarları görəndə Balakişiyə minnətdarlıqlarını bildirirlər.

Bir dəfə də Həkəri kəndindən sifariş göndərirlər ki, Balakişi, Qalalı dərəsində qoz, fındıq, zoğal yetişibdir. Amma uşaqlar ayının qorxusundan gedib yığa bilmirlər. Balakişi sifarişi alandan bir az sonra Həkəri kəndinə gəlir. Axşam camaatla görüşüb sabah tezdən hazırlaşmalarını tapşırır. Tezdən Balakişi camaatın qabağına düşüb Qalalı deyilən yerə gətirir. Bütün günü burada çoxlu meyvə yığırlar. Axşam şad, sağ-salamat qayıdıb gəlirlər. Meyvə çox olduğuna görə camaatın xahişi ilə ovçu Balakişi bu gecə də Həkəri kəndində qalıb səhər yenə camaatı meyvə yığmağa gətirir. Meşədə meyvə yığarkən bir atlı gəlib Balakişini soruşur. Deyirlər ki, buradadır. Atlı Balakişini tapıb görüşür. Balakişiyə həyəcanlı-həyəcanlı deyir ki, papaqlı yalından gələrkən gördüm ki, yekə bir ayı camışı süpürləyib yerə yıxdı. Tez atı çapıb aradan çıxdım.

Balakişi hadisəni camaata bildirməyib atlı ilə tez hadisə yerinə gəlir. Atlını aralıda qoyub ağaclığa girir. Bu vaxt camışın belini sındırıb qanını içən ayı Balakişini görüb üstünə cumur. Balakişi ayının kəlləsini nişan alır. Güllə ayını yaralayır. Qəzəblənmiş yaralı ayı Balakişini süpürləyir. Balakişi cəld kordanı ayının ağzından boğazına soxur. Ayı pəncəsi ilə Balakişini möhkəm vurur. Balakişi çiynindən ağır yara alır. Bu vaxt ayının balası arxadan cumub Balakişinin ayağından dartır. Yer sürüşkən olduğundan ayılar Balakişini yıxırlar çalaya. Korda böyük ayının ağzında olduğuna görə, ağzı ilə Balakişiyə zədə yetirə bilmir. Balakişi üstünə atılmış balanı xəncərləyib yerə aşırır. Bir qədər kənara tullayıb dalbadal böyük ayının başını güllələyir. Ayıları çalada qoyub, atlı dayandığı yerə gəlir. Atlı görür ki, Balakişinin üst-başı qan, paltarları cırıq-cırıqdır. Balakişi hadisəni atlıya danışır. Onlar meşədə meyvə yığan camaatın yanına gəlirlər. Camaat əhvalatdan hali olur. Balakişinin yaralarını bağlayıb ayını öldürdüyü yerə gəlirlər. Camaat öldürülmüş ayıları öküzlərə qoşub gətirir Həkəri kəndinə.

Balakişinin hörməti və şöhrəti artdıqca ermənilərin xayınlığı tutardı. Ümumiyyətlə, ermənilər Balakişidən çox qorxardılar. Erməni qadınları isə Balakişinin qoçaqlığının, mərdliyinin, gözəlliyinin pərəstişkarları idilər. Balakişi

hansı erməni kəndinə gəlsəydi, vurduğu ovlardan kasıblara paylayardı. Bu vaxt onlarla erməni qadını Balakişini görmək üçün müxtəlif bəhanələrlə yola çıxardılar.

Balakişi həqiqətən heyranedici bir görkəmə malik imiş. Deyilənə görə, erməni qadınlarından Balakişi ilə könüllü görüşənlər də varmış.

Bir gün Dığ erməniləri Balakişini aradan götürmək haqqında Gorusun "naçalnik"inə gileylənirlər. Sonra bildirirlər ki, Balakişi bizim namusumuza toxunur. Gorusda Balakişini qəflətən tuturlar. Araqarışdıran deyə Sibirə sürgün edirlər.

Sibirdə Balakişinin mahir ovçu olduğundan qazamatın rəisi xəbər tutur. Bir gün Balakişini yanına çağırtdırıb özü ilə ova aparır. Balakişi Sibir meşələrinə qənim kəsilir. Ova gələnlər Balakişinin cəldliyinə, sərrast güllə atmağına heyran qalırlar. Ovçuluq, qazamatın rəisi ilə Balakişi arasında mehriban münasibət yaradır. Hər dəfə ova gedəndə əli dolu qayıdırlar.

Qazamatın rəisi Balakişinin həqiqətən günahsız sürgün olunduğunu biləndə onun qaçmasına şərait yaradır. Milliyyətcə osetin olan qazamatın rəisi Balakişiyə tapşırır ki, məsələnin üstü açılsa deyərsən özüm qaçmışam.

Balakişi salamat Zəngəzura qayıdır. O indi meşələrdən heyvan yox, erməni kəndlərindən erməni ovlayır.

Dığ erməniləri Balakişinin Sibirdən qaçıb Zəngəzurda erməni ovlaması haqqında yenə Gorusun "naçalnik"inə məlumat verirlər.

Xüsusi göstərişlə Balakişini tutub Gorus qazamatında xeyli ac saxlayır, böyük işgəncələr verdikdən sonra ayağına qandal vurub, boynuna da 12 kq kündə bağlayıb Gorusdan Gəncə qazamatına qədər piyada apartdırırlar.

## MƏNƏVİ SƏRVƏT OĞRULARI

Zəngəzur xalqımızın daş muzeylər diyarıdı. Bol suyu, münbit torpağı, əkinçilik və maldarlıq üçün əlverişli iqlim şəraiti olan Zəngəzurda xalqımızın çox zəngin mənəvi sərvətləri öyrənilməmiş qalmaqdadır. Bu mənəvi sərvətlər içərisində dünya memarlığının nadir inciləri olan tarixi abidələr xüsusi yer tutur.

## ZƏNGƏZURUN İNCİLƏRİ

Birsütun, Ağoğlan, Məlik-Əjdər abidələri ulu keçmişlərdən bugünkü nəslə yadigar qalmış ən qiymətli mənəvi sərvətlərdir. Abidələrə yaxınlaşdıqca insan heyrətə gəlir.

Memarlıq sənətinin ən mürəkkəb, ən düyünlü həlqələri bu abidələrdə açılmamış qalmaqdadır. Qədim müdrik dünya hansı alətlərlə sıldırımlı qayaların döşündə bu yonma, yarma "şəhər"ləri salmışdır? Yonulmuş bu ağır daşları nə ilə

göylərə qaldırıb bir-birinə geyindirməklə ortası sütunsuz imarətlər tikmişlər? Ayrı-ayrı yonma daşlardan tutmuş abidələrin bütün quruluşuna qədər hamısı böyük sirdi.

Bu abidələri iki qrupa aid etmək olar.

1.Tarixi abidələrin Fərhad dövrü (yəni insanların qayaları yarıb özlərinə dolanacaq yerləri düzəltdikləri abidələr) Birsütun, Sarı Qaya yarmaları.

## BİRSÜTUN YARMALARI

Bu abidə indiki Laçın rayonunun Güləbird kəndindən üzü Araz çayına tərəf 1200 metr aralıda, Həkəri çayının sağ sahilində Məmmədölən dərənin yuxarı hissəsindədir. Burada iki abidə diqqəti daha çox cəlb edir.

Birincisi, əjdahanın açıq ağzına oxşayan abidə, ikincisi qayanın döşündə dərin quyusu olan dəhliz və ondan ikinci otağa keçiddir (bu keçid strateji əhəmiyyətlidir). Burada dağın altına tərəf gedən daha dərin quyuya bənzər yol, həmçinin böyük xəzinələr saxlamaq üçün hündürlüyə qalxan bir adamlıq keçid, açıq havaya çıxış, uzaq yerləri seyr etmək üçün xüsusi dəhliz, bu dəhlizdə qayaya həkk olunmuş qadın şəkli və gedilməsi qorxulu olan sirli kaha var. Burada bəzən yandırılan ağac, cındır, şam, kibrit sönür, nə qədər çalışsan da onları yandırmaq olmur. Abidənin ətrafında çoxlu dərin kahalar var.

2.Tarixi abidələrin Simnar dövrü (Yəni insanların yonma daşlardan tikib ucaltdığı saraylar, qəsrlər, türbələr və sairə) Ağoğlan qəsri, Məlik-Əjdər, Sultanbud türbələri və sairə.

## MƏLİK-ƏJDƏR TÜRBƏLƏRİ.

Bu türbələr dünya memarlığının nadir incilərindəndir. Tikilmə tarixi dəqiq məlum deyil. Abidə haqqındakı rəvayətlərin birində deyilir ki, Kürd sərkərdəsi Səlahəddin Əyyubi yüz illik səlib müharibəsini məğlub etdikdən sonra Qafqazda xristianlarla müharibələr zamanı böyük qəhrəmanlıq göstərmiş kürd sərkərdələri Məlik və Əjdərin şərəfinə tikilmişdir. Nankor ermənilər abidələrin üstündəki yazıları qaşımışlar. Xeyli daş kitabələri çıxarıb aparmışlar.

Məlik-Əjdər abidələri Laçın rayonunun Cicimli kəndinin yaxınlığında böyük düzdə tikilib. Buradakı qədim yaşayış yerləri, qəbiristanlar tariximizin qəhrəmanlıq və müdrik keçmişindən xəbər verir.

Bu yerlərin müdrik qocaları Şah İsmayıl Xətainin Gəcavə yolu ilə İrəvan çökəkliyinə gedərkən həmin abidələrdə qaldığından, abidədən bir qədər aralıda (1989-cu ildə ermənilər iki dəfə partladıb sındırdıqları Lələ abidəsindən) tikilmiş memarlıq incisinin qədim günbəzindən danışırlar.

Məlik-Əjdər abidələri Azərbaycan memarlığının tədqiq olunmamış böyük mənəvi sərvətidir.

## AĞOĞLAN ABİDƏSİ

Bu abidə Zabıx çayı axarının sağ sahilində füsunkar mənzərəli bir yerdədir. Abidə ətrafında qədim binanın xarabalıqları qalmaqdadır. Ağoğlan abidəsindən böyük bir zal qalmışdır. Bu zalın istər bünövrə, istərsə də üst döşəmə yonma daşlarının hər biri bir neçə tondur. Bu abidənin memarlıq quruluşu bu yerlərdə yaşayan insanların tikinti sahəsində böyük səriştələri olduğunu sübut edir. Abidənin qapı və pəncərələrinin ətrafına yonma daşlardan qövsvari haşiyələr qoyulmuşdur. Böyük zalın hər tərəfindən havanı dəyişmək üçün xüsusi yerlər var. Yerli sakinlər deyirlər ki, abidənin müxtəlif yerlərindən qarşıdan axan çaya tərəf müxtəlif yeraltı yollar və keçidlər qalmaqdadır.

Ağoğlan abidəsindən üzü Çalbayır dağlarına tərəf, eləcə də Zabıx çayı axarındakı qədim yaşayış məskənləri bu yerlərdə insan nəslinin çox qədimlərdən böyük inkişaf yolu keçdiyini yada salır. Bu abidədəki oyma daşlar ən çox həndəsi ölçülü xətlərdir. Bu xətlər çox güclü təfəkkürün məhsuludur.

Mənəvi sərvət oğruları olan ermənilər bu yerlərdə onlarla, yüzlərlə tarixi abidənin yazılı lövhələrini vurub sındırmışlar. Bəzən iz itirmək üçün abidələrin özlərini də uçurub dağıtmışlar. Qiymətli abidələrin zirzəmilərini qazıb, erməni əlifbası ilə yazılmış saxta lövhələr basdırmışlar.

Belə bir hadisə olmuşdur. İndiki Laçın rayonunun Güləbird kəndi yaxınlığındakı qədim qəbiristanlıqdakı daş kitabə və heykəlləri gecə vaxtı qaldırıcı kranlarla maşınlara yükləyən zaman erməni quldurları yaxalanmışlar. Kəndin camaatı maşınları kənd sovetinin qabağına gətirərək quldurları tövləyə salıb bir həftə orada saxlamışlar. Sonradan məlum olmuşdur ki, onlar ciddi təxribatçılıqla məşğul olurlarmış.

Azərbaycan kəndlərindən qiymətli sənəd inciləri olan xalçaları, müxtəlif toxunma əşyaları alıb dünya muzeylərinə erməni mənəvi sərvətləri kimi satırlarmış.

## ERMƏNİ MALIDI

Yüz illiyin sonlarında Zəngəzurun qədim Qaradağlı kəndində yaşamış hikmətli lətifələr ustadı Xoca Abdulla çox baməzə adam imiş. Onun kəlamları bu

gün də el söhbətlərinin bəzəyidi. Xoca Abdullanın ermənilərlə bağlı bir neçə əhvalatını danışırlar.

Bir adət olaraq Həkəri, Bərgüşad çayları ətrafındakı kəndlərin camaatı istilər düşəndə Çalbayır, Qannıca, Qaragöl, Üçtəpə yaylaqlarına köçürlər.

Bir dəfə Xoca Abdulla yaylaqda alaçığı qurur, qoyun-quzu üçün arxac, mal-qara üçün ağıl düzəldib, bütün işlərini sahmana salandan sonra arana qayıdır ki, uşaqlara bağ-bostan məhsulları aparsın. Xoca Abdulla aranda olarkən bir axşam qədim Burun kəndindən qalxan qaranlıq duman Qaragöl ətrafındakı yaylaqları bürüyür. Çobanlar sürüləri bir yerə toplamağa imkan tapmırlar. Sürülərdən biri azıb gedib çıxır ermənilərin arxacına. Ermənilər həmin gecə sürüləri yaylaqdan endirirlər Gorusun bazarına, başlayırlar satmağa. Bazara gəlmiş Məzməzəkli çobanlar Xoca Abdullanın qoyunlarını tanıyırlar. Amma məsələnin üstünü açmayıb gəlib əhvalatı Xoca Abdullanın çobanlarına danışırlar.

Çobanlar hadisənin izinə düşüb eşitdiklərini dəqiqləşdirirlər. Xoca Abdulla arandan qayıdanda məsələni ona bildirirlər. Xoca Abdulla uşaqlara tapşırır ki, çadırlardan bir neçə pişik tutub xurcunlara yığıb hazırlasınlar. Cavanlara tapşırır ki, bir tuluq neft götürsünlər. Axşam ermənilərin arxaclarına gedəcəyik. Axşam Xoca Abdulla bir neçə atlı cavanla ermənilərin arxaclarına gəlir. Hər şeyi yerli-yataqlı ölçüb-biçir və oturub gözləyirlər. Gecədən xeyli keçəndən sonra Xoca Abdulla pişikləri neftləyib, od vurur və buraxır erməni sürülərinin içinə. Alışmış pişiklər özlərini sürülərin içinə saldıqca sürülər ürküşüb gecənin qaranlığında dağılışırlar. Xoca Abdulla rahatca böyük bir sürünü qabağına qatıb səhərə qədər yol gəlib çıxır Minkəndin bazarına. Sürünü cavanlara verir ki, ucuz qiymətə satsınlar. Özü bir qədər aralıda oturub təsbeh çevirir. Bazara gələnlər qoyun-quzunun belə ucuz satıldığını gördükdə təəccüblənirlər. Səbəbini soruşduqda cavanlar deyirlər ki, gedin o kişidən soruşun. “A kişi, qoyunları niyə belə ucuz satırsan?” deyə soruşduqda Xoca Abdulla başını ehmalca qaldırıb baməzə halda: - Aparın yeyin, **Erməni malıdı**, - deyir.

## GÖZÜMƏ KÜL ÜFÜRDÜLƏR

Xoca Abdulla bir dəfə bağ-bostan məhsullarından yığıb yaylağa göndərərkən yolda ermənilər uşaqların qabağını kəsib yaylağa apardıqlarını əllərindən alırlar. Uşaqlar yoldan qayıdıb evə gəlirlər. Əhvalatı Xoca Abdullaya danışırlar. Xoca Abdulla axşamlar camaatın yığışdığı yerə gəlib deyir ki, bu axşam gedəcəyik erməni xırmanlarından taxıl gətirməyə, ehtiyacı olanlar bizimlə gedə bilərlər. Bir neçə atlı axşam hazır vəziyyətdə Xoca Abdullanın yanına gəlir. Xoca Abdula bostandan bir neçə qarpız, yemiş qırıb xurcuna qoyur və bağlayır atın tərkinə. Gecə gəlirlər erməni xırmanlarına. Xoca Abdulla yoldaşlarını kənarda

qoyub, tanınmamaq üçün üz-gözünü bağlayır və sol çənəsinə pambıq qoyur ki, guya dişi ağrıyır. Bir yaxşı yemişi qoltuğuna vurub gəlir xırman qarovulçusunun yanına. Bildirir ki, taxıla dəyişməyə yaxşı yemiş gətirmişəm. Təzə yemişi kəsib bir dilim ermənіyə verir. Yemiş ermənının xoşuna gəlir. Erməni taxılın yemişə dəyişilməsinə razı olur. Xoca Abdulla qarovulçunun tək olub olmamasını bilmək üçün deyir:

- Uşaqlardan birini qoş mənə, yükü aralıda düşürmüşəm, gedib yüklüyüb gətirək. Qarovulçu bildirir ki, təkdi.

Xoca Abdullaya da bu lazım idi ki, bilsin erməni qarovulçusu təkdir, yoxsa yox. Qarovulçunun təkliyini bilən kimi gündüzdən çəkib külünü yığdığı dəsmalı cibindən çıxarıb açır və hazır vəziyyətdə sol əlində saxlayır. Papirosdan birini yandırıb ağzına qoyarkən qarovulçu yaxınlaşır. – Kirvə, papirosdan birini ver mən də yandırım.

Xoca Abdulla papirosu erməniyə verib öz əlindəki yanan papirosu ona tərəf uzadır. Erməni başını Xoca Abdullaya tərəf əyib papirosu yandırmaq istəyərkən dəsmaldakı külü üfürür ermənının gözünə. Erməni gözlərini ovuşdurarkən Xoca Abdulla başqa bir dəsmalı onun ağzına basıb qollarını bağlayır. Torbanı başına keçirib, ayaqlarını çidarlayır. Yoldaşlarına işarə edir ki, gəlin. Yoldaşları gəlib görürlər ki, Xoca Abdulla qarovulçu ermənının əl-qolunu bağlayıb yıxıb xırmanın qırağına.

Tez atları yükləyib qarovulçunu da götürüb gəlirlər kəndə. Ermənının qaranlıq zirzəmidə gizlədib biçin qurtarınca burada saxlayırlar. Biçin qurtarandan sonra bir gecə aparıb gözləri bağlı buraxırlar ermənının anadan olduğu kəndə. Səhər açılanda qarovulçunun kəndin ortasıyla ayağını sürüyə-sürüyə getdiyini görüb tanıyırlar. Əl-qolunu açıb əhvalatı soruşurlar. Qarovulçu soruşanların hamısına yanıqlı-yanıqlı deyir:

- Gözümə kül üfürdülər.

## YAZIYA POZU YOXDUR

Belə danışırlar ki, qədim Cicimli elində çox varlı bir kişi hər il ailəsinin, qohum-əqrəbasının taleyini münəccimlərə yoxlatdırarmış. Kişinin gözünün ağı-qarası, varı-yoxu bir oğlu varmış, o da yenicə həddi-buluğa çatmışmış.

Bir bahar münəccimə yoxlatdırarkən münəccim bildirir ki, oğlunuz bu il ilan vurmadan öləcək. Bu xəbər kişini çox sarsıdır. Kişi bu hadisənin qarşısını almaq üçün çox tədbirlərə əl atır. Nəhayət, Çalbayır dağındakı ən hündür zirvənin başında oğluna gözəl çadır tikdirir. Yanında gözətçilər, xidmətçilər qoyur. Oğlunun

təhlükəsizliyini təmin etdiyinə şad olur. Zirvəyə Canqutaran adı qoyur. (Yəni bura ilan çıxa bilməz. Oğlumun canı mağılca ilanın əlindən qurtardı).

Kişi oğlanın arzu və istəklərini böyük həvəslə yerinə yetirər, dünya nemətlərindən korluq çəkməyə qoymazmış.

Meyvənin nübar vaxtı imiş. Bağbana tapşırıq verir ki, təzə yetişmiş gilasdan bir səbət yığıb hazırlasın oğluna göndərməyə. Bağban ağacdan bir-bir gilasın yaxşı yetişmişlərini yığıb əzilməsin deyə tez-tez düşərək ağacın dibindəki səbətə boşaldır. Bağban başqa gilas ağacına çıxanda bir ilan gəlib girir səbətə. Bağban yığdığı gilası səbətdəki gilasın üstünə tökərkən ilanı görmür. Kişi gilas dolu səbəti Canqutaran dağında ilandan qoruduğu oğluna göndərir.

Oğlu arandan gəlmiş təzə meyvəni görcək sevinclə səbətə əl uzadan kimi ilan atılıb oğlanın barmağından vurur. Oğlanı xilas edə bilmirlər, ölür. Əhvalatı kişiyə çatdırdıqda, kədərlənərək deyir:

- Yazıya pozu yoxuymuş.

## KORLAR

Aranda yaşayan kürd xanlarından biri hər il yay aylarında ailəsi ilə birlikdə Çalbayır dağlarına istirahətə gələrmiş. Bir dəfə indiki Qubadlı rayonunun Muradxanlı kəndinə çatanda Həkəri çayı daşır.

Gəcavə yoluna çıxmaq mümkün olmur. Bir müddət çayın kənarında qalmalı olurlar. Xanın var-yox bir qız övladı varmış. Qız atasına müraciət edir ki, ola bilməzmi bura bir körpü saldırasan?

Xan qızının sözündən çıxmır. Tez körpünün tikintisini başlatdırır. Xanın qızı nə yaylağa gedir, nə də İrana qayıdır. Sevinə-sevinə hər gün tikintiyə gəlir, işin gedişi ilə maraqlanır. Özünü bu xeyirxahlığın təşəbbüskarı sayaraq fərəhlənir. Körpünün tikintisi iki ilə başa çatır. Açılış zamanı ziyafət məclisində qız saçlarını açaraq iki il müddətində onun qız olduğunu bilmədiklərinə görə yaşadığı kəndin camaatını korlar adlandırır.

O vaxtdan kəndin adı elə Korlar da qalır.

## SARI AŞIQ

Azərbaycan ədəbiyyatı elə böyük sənətkarlar yetirmişdir ki, əsrlər keçdikcə onların adları hörmətlə yad ediliir. Bu cür sənətkarlardan bir də Sarı Aşıqdır.

Sarı Aşıq XVII yüzillikdə indiki Laçın rayonunun Güləbird kəndində yaşayıb yaratmışdır. Axtarışlar və araşdırmalar zamanı Sarı Aşığın həyatı haqqında xeyli material toplanmışdı.

Sarı Aşığın qəbri Həkəri çayının sağ sahilində Güləbird kəndinin qədim qəbiristanlığındakı fəxri xiyabandadır. Bu sənətkar haqqındakı yazılı ilk məlumatı XIX əsrdə yaşamış Qaradağı vermişdir. Onun yazdığına görə Sarı Aşıq "Qaradağ mahalındandır, çox qədim vaxtlardan gəlib Qaradağın Zəngəzur mahalında Həkəri çayının kənarında vaqe Güləbird adlı cəryadə sükan edib".

Sarı Aşıq bayatılarının birində Güləbird kəndinin lap yaxınlığındakı qədim Qaradağlı kəndinin adını çəkərək deyir:

Mən aşiq Qaradağlı,
Qar tutmaz qaradağlı.
Elim Məzməzək eli,
Yurdumdu Qaradağlı.

Qaradağlı deyilən yer Sarı Aşığın məzarından 200 metr aralıda xarabalıqları məlum olan kənd yerinin adıdır. Qaradağlı kəndinin üstündə yamacın döşündə Sarı Aşığın yaylağı, 150 metr aralıda Sarı Aşığın daş atılanı, 2500 metr aralıda sevgilisi Yaxşının məzarı deyilən yerlər qalmaqdadır. Bu yerlərin adları Güləbird kəndinin camaatı tərəfindən hörmətlə qorunub saxlanmaqdadır.

## BÖYÜK BAYATI USTADI

Sarı Aşığın bugünkü nəslə zəngin bir ədəbi irsi qalmışdır. Bu ədəbi irs toplanılaraq dəfələrlə kitab şəklində çap olunmuşdur. Lakin el arasında, xüsusilə Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarında yaşayan müdrik qocaların yaddaşlarında, cib dəftərçələrində, arxiv cünglərində Sarı Aşığın yüzlərlə əsərləri qalmaqdadır.

Sarı Aşığın əsərləri Qafqazda və Yaxın Şərq aləmində geniş yayılmışdır. Bu sənətkarın ədəbiyyatımızdakı mövqeyindən danışarkən böyük folklorşünas Salman Mümtaz yazır:

"Azərbaycanda Aşığın bayatıları dahi şairimiz Fizulinin qəzəlləri qədər mərufdur. Gəncliyə Vaqifin, Zakirin təsirini duydum. Aşığın təsiri də az olmayacaqdır. Çünki Aşığın özündən sonra gələn bütün el şairlərinə, o cümlədən Vaqifə, Zakirə təsiri olmuşdur. Aşığın bayatılarında tarix və məişətimizin mühüm qismi gizlənmişdir".

Qüdrətli qələm sahiblərimiz vaxtaşırı bu sənətkarın yaradıcılığı haqqında öz ürək sözlərini demişlər.

*"Azərbaycan ədəbiyyatında cilalı, bitkin, bədii cəhətdən mükəmməl bayatı yaratmaq ənənəsi Sarı Aşığın adı ilə bağlıdır.*

*Sədnik Paşayev*
*Filologiya elmləri doktoru*

*"Həqiqət odur ki, Fizuli poeziyası ilə Sarı Aşıq şeri iliyinə, qanına qədər bir-birinə yaxındır".*

*Ayaz Vəfalı*
*Şair*

*"Füzuli sözünün damarlarında Dədə-Qorqud qanı axdığı kimi, Sarı Aşığın da canında Fizuli qanı axmışdır".*

*Kamal Vəliyev*
*Professor*

Sarı Aşığı böyük söz ustadı kimi aləmə tanıtdıran onun bayatılarıdı.

Ümumiyyəıtlə, klassik ədəbiyyatımızda epik, lirik, fəlsəfi, məsnəvi poema Nizaminin, rübai Məhsətinin, qəzəl Füzulinin adı ilə bağlı olduğu kimi, bayatı da Sarı Aşığın adı ilə bağlıdı.

Dörd misralıq bir əsərdə dərin fikir, məna ifadə etmək, fikri aydın, həm də gözəl bədii dillə söyləmək Sarı Aşığın yaradıcılığının əsas xüsusiyyətidir. Cinas bayatı yaratmaq sahəsində Sarı Aşıq ən böyük ustad kimi şöhrət tapmışdır. El sənətkarının əsərlərinin əhatə dairəsi çox genişdir. O siyasi lirik nəğmələrində xalqının dərdlərini dünyanın dərdlərinə qataraq etiraz manifesti yaradır.

Mən aşiqəm, gülə naz,
Bülbül eylər gülə naz,
Dünya yaman dünyadı,
Ağlayan çox, gülən az.

El nəğməkarı ictimai ədalətsizliyə, zorakılığa, nadanlığa qarşı çox cəsarətlə çıxış edir. Şair deyir ki, mənim zəmanəmdə cəmiyyəti idarə edənlərin özlərinin idarə olunmalarına böyük ehtiyac var.

Bu vaxt xarici basqınların, daxili çəkişmələrin ölkəyə vurduğu yaraları el sənətkarı ürək yanğısı ilə qələmə alır. Şairin kədəri elin kədərinə çevrilir, vətənindən, elindən sürgün olunmuş onlarla şairlərin, alimlərin kədərinə çevrilir.

Xalqının dərdlərindən ürəyi odlanmış sənətkar odu sönmüşlərə canından od paylamaq istəyir.

Mən aşiq, oda para,
Ay doğdu, o da para,
Varmı bir odu sönmüş,
Canımdan od apara.

Şair elin dərdindən ev tikdiyini, qəmindən hasar çəkdiyini belə ifadə edir:

Mən aşiqəm, ha sarı,
Sınıq könlüm ha sarı,
Aşıq dərddən ev tikmiş,
Qəmdən çəkmiş hasarı.

Sarı Aşıq vətənpərvər şairdir. Onun vətən haqqında şerlərində Azərbaycan təbiətinin heyranedici gözəllikləri sevilə-sevilə tərənnüm olunur. O, vətənin başı qarlı uca dağlarını, qoyunlu-quzulu yastı yaylaqlarını, ceyranlı-cüyürlü geniş çöllərini, turaclı-kəklikli yamaclarını, sonalar çağırışan göllərini qəlbə fərəh verən bir tərzdə tərənnüm etmişdir. Oxucu şairin əsərlərini oxuyarkən bir anlığa özünü Qaragölün, Çalbayırın, Dəli dağın, Xan Arazın, Qoşqarın, Kəpəzin, Savalanın seyrində hiss edir.

Dünya cənnət olsa da
Yenə vətən yaxşıdı.

***

Yarım səndə gəzibdi,
Səni yüz yaşa dağlar.

Sarı Aşıq lirik nəğmələr ustadıdı. Onun lirik qəhrəmanı yerişi gözəl, incə belli, qara telli, tər yanaqlı, bal dodaqlı, hiylə bilməz, yersiz gülməz, bahar üzlü, şəkər sözlü, dərya kamallı Azərbaycan gözəlidir. O al yaşıl geyimli, çarpaz düyməli, zülfü qulac-qulac gözəlləri tərənnüm edərkən sözlə gözəllik lövhəsi yaradır. Gözəlliyi həyatın mənəvi sərvəti sayan sənətkar mənalı ömrün allahını göydə yox, yerdə axtarır.

O, hər şeydən əvvəl, gözəllərdən vəfa, etibar, sədaqət tələb edir. Şair deyir ki, yaxşı gözəl o kəsdir ki, o özü öz gözəlliyinin qədrin bilə, yerində danışıb, yerində gülə. Zərif təbəssüm ilə hər zaman, hər yerdə öz pərəstişkarlarını heyran edə.

Məhz bu vaxtı gözəllik cəmiyyət həyatının yaşadıcı qüvvəsinə çevrilir. Yeri gəlmişkən bir faktı oxucuların nəzərinə çatdırmaq istəyirəm ki, nə yazılı, nə də şifahi ədəbiyyatımızda öz sevgilisinə bu qədər gözəl şerlər qoşan ikinci bir şairimiz, aşığımız yoxdur. Sarı Aşıq bütün ömrü boyu sevgilisi Yaxşının eşqinə sadiq qalmış, bayatılarda ona "Yaxşınamə" yaratmışdır.

Aşiq yaxşıdan gözlər,
Mürğün yaxşı dən gözlər,
Baxdıqca şirin düşər
Doymaz Yaxşıdan gözlər.

Aşiq yaxşıdır, Yaxşı,
Xalın yaxşıdı, Yaxşı,
Sərraf baxdı bəyəndi,
Dedi, yaxşıdı Yaxşı.

İndiyə qədər istər Azərbaycan ədəbiyyatında, istərsə də dünya ədəbiyyatında gül və bülbül haqqında minlərlə əsərlər yazılmışdır. Lakin Sarı Aşığın bayatılarındakı cinas, bənzətmə adamı heyrətdə qoyur. Qızılgül təzə

açılarkən onun rəngində qana bənzər bir qızartı olur. Aşıq onu bülbülün bağrındakı qana bənzədərək deyir:

Mən aşiqəm, qanlı gül,
Qanlı sevin, qanlı gül,
Yemiş bülbül bağrını
Çıxmış ağzı qanlı gül.

Sarı Aşığın bayatılarındakı misraların çoxu indi elin hikmətli sözlərinə çevrilmişdir.

Gedər bu gözəllik, sənə də qalmaz.

Zər qədrini zərgər bilər.

Namərd gəlib mərd olmaz,
Olmasa mərd atası.

Dərin müşahidə qabiliyyətinə malik sənətkar mürəkkəb psixoloji əhval ruhiyyəni yaxşı duyur, onu çox incə və poetik bir dildə son dərəcə gözəl ifadə etməyi bacarır. İstərəm bir qədər cəsarətlə deyəm ki, Sarı Aşığın bayatılarının hər biri ayrılıqda kamil bir əsərdir.

Mən aşiq, baxtı yarım,
Baxtımın taxtı yarım,
Üzündə göz izi var,
Sənə kim baxdı, yarım?

Aşıq yey işin bilməz,
Xalın yeyişin bilməz,
Yapalaq tərlan olsa,
Didər, yeyişin bilməz.

Aşıq, min ayə dəyər,
Xalın min ayə dəyər,
İl var bir günə dəyməz
Gün var min ayə dəyər.

Sarı Aşığın yaradıcılığında ehtiras idraka tabe olur. Məhəbbət kamilliyi mənalı ömrün yaşadıcı qüvvəsinə çevrilir. Qədirbilənlik ülvi məhəbbəti vəfa mehrabına qaldırır. Həyatın çətinliklərindən qeyrətlə çıxmış saf məhəbbət sevməyə qadir olan aşiqlərə "qibləgah siz özünüzsünüz" deyir.

## MƏHƏBBƏT DİNİ

Sarı Aşıq özündən əvvəlki bütün ateistlərdən daha cəsarətli addımlar atmışdır. Məhz ilk dəfə bütün uydurma dinlərdən yaxa qurtararaq məhəbbət dini yaratmışdır.

Ümumiyyətlə, bəşəriyyət kamil insanlar cəmiyyəti yaratdıqda o cəmiyyətin ən sevimli şairlərindən biri Sarı Aşıq olacaqdı.

Sarı Aşığın böyüklüyü ondadır ki, onun əsərləri yayılan yerlərdə xurafatın qara buludlu göyləri ayazımışdır.

Məlumdur ki, orta əsrlərdə Azərbaycanın siyasi ideologiyası hürufatla nəfəs alırdı. Bu vaxt atanın oğula, ananın qıza öyrətdiyi ən müqəddəs adətlərdən biri dinə kor-koranə itaət idi. Xurafat zehni, düşüncəni elə buxovlamışdı ki, bu buxovların açılması üçün böyük qurbanlar verilməsi tələb olunurdu. Azərbaycan isə bu qurbanları vaxtaşırı verirdi. Fəzlullahlar parçalanır, Nəsimilərin dərisi diri-diri soyulurdu. Dünyanı dərk edənlər, bildiklərini xalqına öyrədənlər cəmiyyətin düşmənlərinə çevrilirdilər.

Düşünən başlara ağır zərbələr endirildiyi bir dövrdə, dövlət qılıncının xalqı doğradığı bir zamanda, özünü azadlıq carçıları həllac Mənsura, Nəsimiyə bənzətmək, fərdi məhəbbəti bəşəri məhəbbətə çevirib sevgilisini Məkkə, Mədinə adlandırmaq sənətkardan çox böyük cəsarət tələb edirdi.

Mən aşiq, o yar mənim,
Qəm bağrım oyar mənim.
Məkkəmdi, Mədinəmdi,
Qibləmdi o yar mənim.

Kəbədə ölsə aşiq
Üzün qoyun yar sarı.

Sinəndir canamazım,
Zülfün təsbeh, möhür üz.

Kim deyir haq camalı,
Yaxşı üzündə deyil.

Kəbəni görər aşiq,
Göz gözə alışanda.

Nəsimitək bu aşiq,
Yolunda soyulandı.

## FİLOSOF ŞAİR

Sarı Aşıq müdrik zəkaları heyrətdə qoyan el filosofudur. Şairin fəlsəfi fikrinin mərkəzində, "CƏMİYYƏTİN KAMİLLİYİ FƏLSƏFƏNİN HƏYATILIĞINDADIR" ideyası durur. Şair deyir ki, hər hansı bir xalq öz filosofunu vaxtında ictimai kürsüyə çıxararsa, bütün müvəffəqiyyətlərin və fəlakətlərin səbəbini fəlsəfi zəka ilə təhlil edərsə, o xalq intibah qapısını daha tez aça bilər.

Sarı Aşıq cəmiyyətin ictimai fikrində idrak bayrağı qaldırmışdır. O mürgüləyən şərq siyasi ideologiyasının başına oyanma gürzü vurmuşdur. Bu vaxt cəmiyyəti düşündürən və onu təlatümə gətirən suallara ən çox Sarı Aşığın əsərlərində rast gəlmək olardı.

Xalqının dərdlərinə ürəkdən acıyan sənətkar "**Bol suyu, münbit torpağı, əlverişli iqlim şəraiti, tükənməz yeraltı, yerüstü sərvətləri olan bir ölkədə" insanların ehtiyacla yaşamasına dözə bilmirdi.**

O, bir cərrah kimi xalqının yaralarını kəsib atmaqla dərdlərini sağaltmağa çalışır. Bu vaxt dünyəvi elmlərin şərhindən söhbət açmağa, təbiət və cəmiyyət qanunlarının elmi anlayışını təhlil etməyə, ağılda şübhə yaradan səbəbləri öyrənməyə, idrakı nəzəriyyələr kəşfinə yönəltməyə, təbiəti kainat mərhəmətindən xilas etməyə, çayları susuz səhralara çıxarmağa can atır, qəbilələr, tayfalar, xalqlar birliyindən qüdrətli dövlət yaratmaq, ədaləti, bərabərliyi, istedadlı qabiliyyətli sənətkarları qorumağa qadir olan bir cəmiyyət ideyasının təbliğinə başlayır. Şairin zəka uğultuları yertərpənişindən daha həyəcanlı olur.

Qara qüvvələr şairin əsərlərini zəlzələdən təhlükəli sayırlar. Lakin Sarı Aşıq ürək sözlərini cəmiyyətə cəsarətlə deyir:

Ay zamana, zamana,
Baxmaz yaxşı,yamana.
Eşşəklər arpa yeyir,
Atlar möhtac samana.

Dəryaca ağlın olsa
Yoxsul olsan gülələr.

Su vurur, pər fırlanır,
Görən de pər dəlidir.

## QÜDRƏTLİ SƏNƏTKAR

Sarı Aşıq hələ öz sağlığında qüdrətli bir sənətkar kimi elin hörmətini qazanmışdır. El arasında sənətkar haqqında çoxlu rəvayətlər, sözləmələr, düzəltmələr, dastanlar yaşamaqdadır.

Axtarışlar zamanı tapılan əsərlərdən görünür ki, deyişmələr zamanı Sarı Aşıq onlarla şairi, aşığı bağlamışdır.

Öz dərin məntiqli kəlamları, ölməz fəlsəfi fikirləri ilə üstünlük qazanmışdır.

Maraqlı deyişmələrdən biri ilə oxucuları tanış etmək istəyirəm. Kürdüstan qocaları belə nağıl edirlər ki, Təbrizli bir aşıq indiki Zəngilan rayonunun Məmmədbəyli kəndinə gəlir. (Bu kənd Araz çayının yaxınlığındadır). Sarı Aşığa sifariş göndərir ki, səninlə deyişməyə gəlmişəm. Qalib gəlsəm sazını alacağam. Qalib gəlsən sazımı verəcəyəm. Sarı Aşıq xəbəri eşidib Məmmədbəyli kəndinə gəlir. İlk tanışlıq və şərtləşmədən sonra məclis qurulur. Təbrizdən gələn aşıq məclis qarşısında bir qədər hərbə-zorbadan sonra Sarı Aşığa aşağıdakı məzmunda Bayatı üstündə bir bağlama deyir. Yeri gəlmişkən, deyim ki, orta əsrlər Azərbaycan ədəbiyyatında deyişmə sənətkarların xalq qarşısında imtahan məktəbinə çevrilmişdir.

Aşıq, bənəy-bənəydir,
Halın bənəy-bənəydir,
Səndən soruram, Aşıq,
Araz neçə sənəkdir?

Məclis qarşısında az vaxt ərzində belə mürəkkəb bağlamaya dinləyiciləri qane edərək düzgün cavab vermək sənətkardan böyük istedad tələb edirdi. Sarı Aşığın bədahətən şer demək qabiliyyəti, fəlsəfi ümumiləşdirmə bacarığı, sözü aydın, həm də yerində işlətmək qüdrəti sənətkarı dardan qurtarır. Təbrizli aşığın öz qafiyələri ilə ona belə cavab verir.

Aşıq bənəy-bənəydi,
Halın bənəy-bənəydi.
Gəl sən saxla Arazı,
Deyim neçə sənəkdir.

Sarı Aşığın cavabı rəqib aşığı və məclisdəkiləri heyrətdə qoyur. Təbrizli aşıq bir bağlama da deyir:

Hər bir dağın diki var,
Dərəsi var, diki var,
Səndən soruram, aşıq,
Başda neçə tük olar?

Sarı Aşıq yenə həmin qafiyələrlə cavab verir:

Hər bir dağın diki var,

Dərəsi var, diki var,
Kəs başını, ver mənə,
Deyim neçə tükü var.

Deyişmə uzun çəkir. Nəhayət, Təbrizli aşıq uduzduğunu bildirib sazını Sarı Aşığa verir. Bu xəbəri eşidən Pənahabadlı Kərim xan Sarı Aşığı sarayına dəvət edir. Lakin Sarı Aşıq saraya getmir və ömrünün axırına qədər Güləbird kəndində qalıb, burada yazıb-yaradır.

## VƏFALI YAR YAD OLMAZ

Sarı Aşığın cəsarətli çıxışları nəinki öz həyatını təhlükə qarşısında qoyur, hətta iki nəsil arasında yaranmaqda olan qohumluğun düşmənçiliyə çevrilməsinə gətirib çıxarır.

Yaxşının dindar atası, zəif düşüncəli qardaşları fırıldaq din xadimi Səlimin, nankor Yaman bəyin fitvalarına uyaraq Sarı Aşığa sui-qəsd hazırlatdırırlar. Yaxşı yaranmış vəziyyəti Sarının ailəsinə çatdırır. Sarı Aşığın atası, dostları Kənd piraniləri məsləhət görürlər ki, ara sakitləşənədək Sarı Aşıq Araz kənarındakı Məmmədbəyli kəndində qalsın.

Sarı Aşıq xeyli vaxt Məmmədbəyli kəndində yaşamalı olur. Bu vaxt yaratdığı həsrətli nəğmələr silsiləsində sevən aşiqin həqiqi ürək çırpıntıları, vəfa, etibar, sədaqət, hörmət və ehtiram ifadə olunmuşdur.

Bu nəğmələr cəmiyyətdən küsmüş şairin təbiətə müraciətidir. Dağlar, dərələr, çaylar, uçan quşlar, əsən yellər məhəbbət ümidgahı, təsəlli istinadgahıdır.

Düşmüşəm qəribliyə,
Dərdimi bilən yoxdur.

Gedirsən salam, dua
Apar Yaxşıya məndən.

Ahım dağlara düşdü,
Qaçın ellər yanarsız.

Bir yana durun dağlar,
Görünsün yar diyarı.

Nə dağlardan qar gedər
Nə məndən yar xəyalı.

Qiyamət o gün qopar,

El köçə, qala yeri.

Təsəllim bundan belə
Yuxuda görəm səni.

Yavaş get namə yazım,
Apar yara buludlar.

Bir gününə dözmədim
Oldum illər ayrısı.

Oxuram eşq ayəsin,
Yar yuxudan oyana.

Dindirmə qan ağlaram
Yaman çağımdır mənim.

Yardan ayrılan aşıq
Sərgərdan gəzər, ağlar.

Tökərəm göz yaşımı
Üzümdən sellər axa.

Oxuram eşq ayəsin,
Yar məzardan oyana.

## GÖY KİŞNƏR, BULUD AĞLAR

Sarı Aşıq Məmmədbəylidə yaşayarkən sevgilisi Yaxşını Yaman bəyə vermək istəyirlər. Yaxşı ailəsinə və elçilərə qəti etirazını bildirir. Lakin onun etirazına məhəl qoymurlar. Toy gecəsi Yaxşı özünü qayadan atıb öldürür. Onu Maxsudlu kəndinin kənarında Həkəri çayının sol sahilində yamacın döşündə nakam ölənlər qəbiristanlığında dəfn edirlər. Xəbər Sarı Aşığa çatır. Bütün arzuları puç olmuş qəm karvanlı sənətkar bütün gecəni saz çiynində yol gəlib səhərə yaxın Yaxşının dəfn olunduğu məzarıstana çıxır. Aşıq görür ki, dostları Yaxşının məzarının üstündə keşik çəkib, burada qalıblar.

Sarı Aşığın burada çağırdığı bayatılar xüsusilə heyrətamizdir.

Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar,

Burda bir nakam ölüb,
Göy kişnər, bulud ağlar.

Tutdum hicran yaxasın
Gördüm öz yaxam əldə.

Dərmansız dərddən Aşiq
Gəl götür gərəyincə.

Can məndə qərar tutmaz
Göndərin sində qalsın.

Sızıldatdın Aşiqi
Yağa su damar kimi.

Qoşaram qəm cütünü
Özümə dərd əkərəm.

Dərdimi dağa dedim,
Ahımdan dağ əridi.

Fələk, gəl sübut eylə,
Hansı günüm xoş keçdi?!

Xəzəl ollam tököllləm
Viranə bağlar kimi.

Çıxaram yol üstünə,
Deyərəm elə dərdim.

Ürəyim tək nalə çək,
Çalmağa neyi məndən!

Gedək təbib yanına
Görək dərdə nə bağlar?

Könlüm elə virandı
Arı gəlsə, şan bağlar.

Qarğalar Laçın oldu,
Laçınlar qarğalandı.

## TƏRSİNƏ QOY...

Elinin, obasının böyük ehtiram və hörmətini qazanmış şair sevgilisi Yaxşının ölümündən sonra çox yaşamır.

Sanki dağlar da, dərələr də şairlə birlikdə yas saxlayır. O hara baxır, nəyi görür, gözləri yaşla dolur. Qəm karvanı idrak baharını əbədi yoxluğa aparır. Bayatı bağımızın qəlbə fərəh verən güllərinə xəzan yelləri əsir. Mənalı ömrün son təlatümlü dəqiqələri şairə dünyayla "vidalaş", deyir.

Dörd misralıq nəğmələri ilə şərqi heyrətdə qoyan məhəbbət dininin böyük fədaisi bütün insanlığı titrədəcək bir vəsiyyət edir.

Mən Aşiq, tərsinə qoy,
Tər təni tərsinə qoy,
Yaxşını qibləsinə,
Aşiqi tərsinə qoy.

Müasirləri el sənətkarını belə də dəfn edirlər. Sevgilisi Yaxşının məzarını qibləyə, Aşiqin məzarını üzü sevgilisinin məzarına doğru qoyurlar. Qədirbilənlər hər iki aşiqin məzarı üstündə əbədiyyət şamı yandırıb Ziyarətgaha çevirirlər.

## SƏNƏTKARA EHTİRAM

Qədirbilən xalqımız qüdrətli sənətkarın həyat və yaradıcılığına həsr olunmuş xeyli işlər görmüşlər. Aşıqlarımız şairin qoşma, gəraylı, bayatı və təcnislərini sevə-sevə oxumuş, oxuya-oxuya əsrlər boyu yaşatmışlar. Tədqiqatçılarımız Sarı Aşığın bayatılarının elmi şərhinə həsr olunmuş çoxlu əsərlər yazmışlar.

Mərhum xalq şairimiz Məmməd Rahim Sarı Aşığa həsr olunmuş poema yazmışdır. Xalq rəssamı Mikayıl Abdullayev Sarı Aşığın portretini, heykəltəraş Aslan Rüstəmov Sarı Aşığın sevgilisi ilə birlikdə heykəlini yaratmışdır.

Bu sətirlərin müəllifi sənətkarın əsərlərinin uzun illər soraqçısı olmuş, ciddi elmi axtarışlar nəticəsində iki cildlik külliyyatını toplayıb tərtib etmiş, topladıqlarını vaxtaşırı qəzet və jurnallarda çap etdirmiş, radio və televizia verilişlərində dönə-dönə səsləndirmişdir. Sarı Aşığın yaradıcılığının böyük tədqiqatçıları və pərəstişkarları Salman Mümtazın, Həmid Araslının, Əhliman Axundovun Sarı Aşıq haqqındakı qiymətli fikirlərini nəqqaşlara mərmərin üstünə köçürtdürərək Güləbird kəndində tikdirdiyi ziyarətgahın divarlarına həkk etdirmişdir. Həmçinin Sarı Aşığın həyat və yaradıcılığına həsr olunmuş "Sarı

Aşıq” adlı mənzum pyes yazmışdır. Pyes 1984-cü ildə mədəniyyət nazirliyi tərəfindən bəyənilərək tamaşaya qoyulmaq üçün 30 xalq teatrına göndərilmişdir. Lakin Sarı Aşığın həmyerlisi qəlbini rahat görməyərək ömrünün 20 ilini sərf edib sənətkarın məzarı üstündə ziyarətgah tikdirir. Ziyarətgahda Sarı Aşığın sevgilisi Yaxşı ilə birlikdə heykəlini qoydurur, qədim Sultanbud türbəsini təmir etdirib Sarı Aşıq adına bayatı muzeyi açdırır, Təbrizdən Borçalıya, Dərbənddən Göyçə mahalınadək xalqımızın mənəvi sərvətlərini toplayaraq elmi ziyarətgah yaradır. 1990-cı ildə ziyarətgahın açılışını keçirir.

Bayatı muzeyinin nəzdində Zəngəzuru öyrənən cəmiyyət yaradır. Cəmiyyətdə Zəngəzurun tarixi abidələrini, foklorunu, coğrafiyasını öyrənən dərnəklər təşkil edir. Bu elmi ziyarətgaha həsr olunmuş film çəkdirərək xaricdəki Azərbaycan dərnəklərinə göndərir. Qədirbilən bütün elm xadimlərimizin ziyarətgaha gəlmələri üçün şərait yaradır. Ziyarətgahda xalq ədəbiyyatımızın piranilərinə həsr olunmuş 180 lövhə təşkil edir. Zəngəzurun folklorunu toplamaq üçün Bakı-Laçın avtomobil yolunun üstündə, Həkəri çayının füsunkar sahilində ədəbi gənclik üçün şer evi tikdirib içərisinə Bayatı qutusu qoydurur.

İndiki Laçın rayonuna yolu düşənlər dumanlı dağları, dərin dərələri, sirri açılmamış qayaları ilan kimi qıvrılıb axan çayları, köpüklü şəlalələri çoban tütəyinin sədaları altında kəklikli yamacları seyr edə-edə Sarı Aşığın məzarına ziyarətə gəlirlər.

## PİÇƏNİSLİ AŞIQ ABBAS

Zəngəzur məclislərinin hikmətli söz ustalarından biri də Piçənisli Aşıq Abbas olmuşdur.

Elin qəmi-kədəri, sevinci-fərəhi ilə yaxından bağlı olan, keçirdiyi məclislərdə gəncliyə müsbət təsir edəcək nəğmələri daha çox oxuyan Aşıq Abbas xalq qəhrəmanı Sultanbəyin yaxın məsləhətçisi olmuşdur.

XX əsrin əvvəllərində Zəngəzurda daşnak fəaliyyətinə qarşı mübarizənin fəal iştirakçılarından olan Aşıq Abbas öz sazı, sözü ilə vətənpərvərləri düşməni qırmağa ruhlandırmaq sahəsində böyük iş görmüşdü.

Sultanbəyin, Çal Aslanın, Fərzalıbəyin, Ağaməmmədin mürəkkəb əməliyyatlarında döyüşkən dəstələrin önündə getmişdir. Aşıq Abbasın elin igid oğlanlarına həsr olunmuş çoxlu şerləri qalmışdır.

Çağırın igidlər girsin meydana,
Gavırın başını batırsın qana,
Dağlar arxa dursun böyük Sultana,
Düşmənin başını əzəcəyik biz,
Ulğumun bədəndən üzəcəyik biz.

Həyat və yaradıcılığının tədqiqinə ehtiyac duyulan bu piraninin maraqlı lətifələri, gözlənilməz atmacaları, bədahətən, yerində deyilmiş və kəsərli cavabları zəngəzurluların yaddaşında yaşamaqdadı.

## ŞƏR OLSAYDI, SƏN GEDƏRDİN

Aşıq Abbas səhər-səhər sübh tezdən qoltuğunda saz toya gedərkən kəndin mollası çıxır Aşıq Abbasın qabağına. Molla deyir ki, ay Aşıq Abbas, bu səhər-səhər xeyir ola saz qoltuğunda hara gedirsən?

Aşıq Abbas deyir: Molla əmi, şər olsaydı sən gedərdin, xeyirdi ki, mən gedirəm.

## BABANIZ KİMİ

Qarabağ bəyləri ilə Sultanbəyin tez-tez atmacaları olarmış. Bir dəfə məktub göndərirlər ki, sel siz tərəfdən bir meyit gətirib. Onu necə dəfn elətdirək? Sultanbəy ölənin insan olmasından şübhələnir və bir qədər duruxur. Məktubu Aşıq Abbasa verir ki, cavab yazsın. Aşıq Abbas cavabında yazır ki, babalarınızı necə dəfn eləmisiniz, sel gətirəni də elə dəfn edin.

## PLOV SİZİN OLSAYDI

Bir dəfə Sultanbəylə Aşıq Abbası Şuşaya qonaqlığa dəvət edirlər. Sultanbəy bilir ki, Qarabağ bəyləri nəsə bir iş törədəcəklər. Məclisdə Aşıq Abbas oxuduqca Qarabağ bəyləri müxtəlif atmacalar ataraq Sultanbəylə Aşıq Abbası pərt etmək istəyirlər.

Aşıq Abbas oxuyub qurtardıqdan sonra eşiyə çıxır ki, bir qədər havasını dəyişsin. Onlara gedən nökərə tapşırır ki, aşbazı güdsün, fürsət olanda bişirdiyi plov qazanını götürüb gizləsin. Nökər aşbazı güdür. Fürsət olan kimi plov qazanını götürüb bağçada gizləyir. Yemək vaxtı qazanı çox axtarırlar. Lakin tapmırlar.

Başlayırlar süfrədəki çörəkləri gileylənə-gileylənə yeməyə, Aşıq Abbas deyir ki, biz bulaq üstə yemək üçün plov bişirtdirib götürmüşük, istəyirsiniz gətirtdirim yeyin. Acımış bəylər məmnuniyyətlə razı olurlar. Aşıq Abbas nökəri çağırır ki, o plov qazanını gətir bu bəylər yesinlər. Bərk acıblar.

Nökər dolu plov qazanını gətirir, Qarabağ bəyləri girişib plovu yeyirlər. Məsələdən duyuq düşən aşbaz gəlib deyir ki, plovu mən bişirmişəm. Bu mənim qazanımdı.

Aşıq Abbas ciddiləşir, bizim qazandı, Qarabağ bəyləri deyirlər, Sultanbəy, biz uduzduq. Plov bizim olsa da sizin plov kimi yedik. Aşıq Abbas Sultanbəyə işarə edir ki, öz evlərində gördün nə elədim? Sultanbəy həmin gün Aşıq Abbasa Şuşa qalasından bir dəst çox bahalı məclis geyimi alır.

## HAYIF, HAYIF...

Zəngəzurda bir gopçu kişi varmış. Bu gopçu fikirlərini elə əsaslandırıb danışarmış ki, hələm-hələm adam onun danışdıqlarının yalan olduğunu başa düşməzmiş. Amma Aşıq Abbas çox arif adam olduğundan onun yalanlarını tez başa düşüb deyərmiş: hayıf, hayıf...

Bir gün Sultanbəy soruşur ki, ay Abbas, sən niyə Kərim kişi danışdıqca hayıf-hayıf deyirsən?

Aşıq Abbas cavab verir ki, bəy, Kərim kişi danışığına yalan sözləri çox qoşur. Mənim düz fikirlərə hayıfım gəldiyinə görə, o danışanda hayıf, hayıf deyirəm.

## ZƏHRƏXANIM TƏLİMİ

Sinəsi folklor xəzinəsi ilə dolu nənələrimizdən bir də Zəhrəxanım olmuşdur. Zəhrəxanım indiki Laçın rayonunun Güləbird kəndində 120 il ömür sürmüşdür. O, xalq qəhrəmanımız Həcər xanımın yaxın rəfiqəsi imiş. Rəfiqələr kəklik ovuna çıxmağı çox sevərlərmiş. Onlar kəkliyi uçurub həmişə göydə vurarlarmış. Zəhrəxanımın "O anadı" təlimi Zəngəzurda geniş yayılmışdır. Təlimi belə danışırlar.

Bahar fəsli Zəhrəxanım qızları başına toplayıb Həkəri çayının füsunkar sahillərinə seyrə çıxarmış. Gəzinti vaxtı təzə bala çıxarmış bir quş yuvasına öldürülmüş böyük bir ilan dolayıb, yem dalınca getmiş ananın yuvaya qayıtmağını gözləyir. Quşun ilanı gördükdə balaları üçün keçirdiyi həyəcan və nigarançılığı qızlara göstərib deyərmiş: "Qızlar, diqqətli olun. Görün ana quş balaları üçün necə nigarandır.... Bax, o anadı!"

Səhərisi gün Zəhrəxanım təlimini belə davam etdirərmiş. O həyətdə bağlanmış körpə buzovu mıxdan asdırıb saldırarmış tövləyə. Örüşdən qayıdan inək balasını bağlandığı yerdə görməyib, həyətdə o tərəf, bu tərəfə gedərək mələməyə başlayır. Onun səsini eşidən buzov tövlədə mələyir. İnək balasını səsindən tanıyır və yaxınlaşıb buynuzu ilə tövlənin qapısını sındırmaq istəyir. Zəhrəxanım qızlara üz tutub deyir:

- Baxın, qızlar. Bax o anadı!

Zəhrəxanım üçüncü günü dəvənin balasını gizlətdirir. Dəvə həyətdə adamların üstünə cumur. Sanki onlardan balasını verməyi tələb edir. Sonra həyətdən çıxıb otladığı yerlərə üz tutur. Özünü qayalıqlara, kolluqlara vurur, əvvəllər otladığı yerlərə gedir. Lakin balasını tapa bilməyib yenə qəmgin-qəmgin həyətə qayıdır. Həmişə yatdığı yerdə dizlərini yerə qoyub başını çiyninə əyərək gözlərindən yaş axıdır. Zəhrəxanım dəvəni qızlara göstərib deyir:

- Baxın, qızlar. O anadı!

## İSMAYIL KİMİ ATAR

1918-ci ildə Zəngəzurda ermənilərin ara qarışdırdığı vaxtlarda İsmayılbəy indiki Laçın rayonunun Məzməzək kəndində Takım komandiri imiş. O, çox sərrast tüfəng atarmış.

Bir dəfə İsmayılbəy görür ki, kəndçisi Səkinə arvadı Həkəri çayının qırağında erməni əl atıb tutdu. Uzaqdan İsmayılbəy elə sərrast nişan alır ki, güllə ermənінin biləyindən dəyir. Ermənінin qolu boşalır. Səkinə arvadı buraxır. Yaylığı onun əlində qalır. O vaxtdan el arasında deyirlər: atan İsmayıl kimi atar.

## DÜŞMƏNLƏR BARIŞDILAR

Piçənisli Əkbər Sultanbəyin üstünə adam göndərib bildirir ki, Sarıbaba yaylağında, səfalı bir bulağın üstündə alaçıq qurub istirahət edirəm. Əmlik quzularım da çoxdur. Erməni daşnakların yurdumuza basqını yediyimi zəhər edib, yuxum ərşə çəkilib, rahat ola bilmirəm. Hərgah, razı olsanız mən də gəlib sizin dəstənizdə düşmənlərə qarşı vuruşaram. Xəbər Sultanbəyə çatan kimi bildirir ki, bizə Əkbər kimi oğullar lazımdı. Deyin gəlsin. Sultanbəy Əkbərin qoçaq, igid, mərd, sərrast güllə atan bir adam olduğunu çoxdan bilirdi. Təsadüfən əlindən xəta çıxmışdı, ona görə də utandığından çox vaxt eldən, obadan aralı yaşayırdı. Yaranmış vəziyyət Əkbərdə vətənini qorumaq üçün daxili vüqar oyatmışdı.

Əkbər gəlib Sultanbəyin kəşfiyyatçı Taqımına qoşulur.

Bir gün xəbər gəlir ki, daşnaklar Turşsu yaylağına qoşun cəmləşdirirlər. Sultanbəy ermənilərin strateji əhəmiyyətli bir yerə yığılmalarından narahat olur. Erməniləri vurub oradan qovmaq üçün təcili tədbirlərə əl atır. Oradakı qüvvələri müəyyənləşdirmək üçün iki kəşfiyyatçı göndərilməsini məsləhət görür. Səhər təlimindən sonra Sultanbəy kəşfiyyatçılar qarşısında çıxış edərək bildirir ki, kim Turşsu yaylağındakı erməni qüvvələrindən mənə dəqiq və tez xəbər gətirsə ona bir beşatılan tüfəng, bir yəhərli at bağışlayacağam. Sıra ilə dayanmış kəşfiyyatçılar içərisindən birinci Əkbər qabağa çıxıb Sultanbəyə deyir ki, mən o mükafatlar olmasa da getməyə hazıram. İkinci Vağazinli Kazım qabağa çıxır. O da çox karlı

adam imiş. Kazımın Əkbərlə kəşfiyyata getməsi bəzilərində narahatlıq doğurur. Çünki tağımdakı kəşfiyyatçıların çoxu bilirdi ki, Əkbərlə Kazım bir-birinə düşməndilər. Yoldaşları qorxurdular ki, onlar gedib bir-birini öldürərlər. Bir azdan Teymur yüzbaşı Sultanbəyə bildirir ki, Əkbərlə Kazım bir-birinə düşməndi. Gedib birdən xoşagəlməz hərəkətlər edərlər. Sultanbəy Kazımla Əkbəri yanına çağırıb vəziyyəti aydınlaşdırarkən hər iki kəşfiyyatçı yerindən cəld qalxıb Sultanbəyin gözü qarşısında bir-birini qucaqlayıb öpürlər. Sultanbəyə deyirlər ki, indi bizim düşmənimiz ermənilərdi. Arxayın ol. Əkbərlə Kazımı kəşfiyyata yola salırlar. Onlar Turşsu yaylağına çatan kimi Kar qayadan erməniləri gülləyə tuturlar. Ermənilər elə bilirlər ki, Sultanbəyin dəstələri hücuma keçib. Hamısı Turşsu yaylağından özünü Kirs dağının ətəklərinə tərəf tökürlər.

Zəngəzurlular dar gündə Vətən naminə Kazımla Əkbərin barışıb döyüşə getmələrini bu gün də hörmətlə danışırlar.



Султанбəј



Бәјим ханым



Шәмилбәј



Овчу Султан



Мəлик-Əждəр түрбəлəри



Сары Ашыг зијарәткаһы

*Bakı şəhəri, 9 mart 1992.*

## KİTABIN İÇİNDƏKİLƏR


Ön söz yerinə
Ermənilər barədə demişlər
Xalq qəhrəmanı Sultanbəy
Tat qırğını
Zəka silahdan da güclüdür
Qaragöl döyüşü
Sahil əməliyyatı
Müvəqqəti dinclik
Daşnakların inqilab tribunalı
"Gəl keç"
Sultanbəyin qızı Bəyim xanımın xatirələrindən
Sultanbəy el yaddaşında
Qayğıkeş həkim, vətənpərvər general
Tərxanlı Fərzalıbəy
Kırs əməliyyatı
İldırım dağlara çaxır
Nəbi meydanı
Bəhlul cahadı
Dəvə-Dərə qırğını
Kişi Tavat
Qalalı qırğını
Dorhunu-Andaraşad faciəsi
Xilaskar ovçular
Mənəvi sərvət oğruları
Erməni malıdı
Gözümə kül üfürdülər
Yazıya pozu yoxdur
Korlar
Sarı Aşıq
Sənətkara ehtiram
Piçənisli Aşıq Abbas
Şər olsaydı sən gedərdin
Babanız kimi
Plov sizin olsaydı
Hayıf, hayıf
Zərxanım təlimi
İsmayıl kimi atar
Düşmənlər barışdılar

*Səbahəddin El oğlu*
(*Səbahəddin Ağa oğlu Rüstəmov*)
ZƏNGƏZUR HADİSƏLƏRİ
(Azərbaycan dilində)

*Сабахаддин Элогли*
(*Сабахаддин Ага оглы Рустамов*)
ЗАНГЕЗУРСКИЕ СОБЫТИЯ
(на азербайджанском языке)
Баку. Азернешр. 1992.

Bədii redaktoru *F.Fərəcov*.
Texniki redaktoru *S.Əhmədov*.
Korrektor *M.Sasani*.
ИБ № 5865

Yığılmağa verilmiş 19.05.92. Çapa imzalanmış 07.07.92. Ədəbi qarnitur. Yüksək çap üsulu ilə. Formatı 60x84 1/16. Kitab-jurnal kağızı. Şərti çap vərəqi 3,72. Şərti rəngli surəti 4,07. Uçot nəşr vərəqi 3,5. Tirajı 31 000. Sifariş 90.
Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsi
Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya
Birliyi "Azərnəşr". Bakı – 370005, Hüsü Hacıyev küçəsi, № 4.

Государственный комитет Азербайджанской
Респулики по печати.
Азербайджанское государственное издательско-
Полиграфическое обединение «Азернешр».
Баку – 370005, ул. Гуси Гаджиева, 4.